# CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ QSC

CREDIT FINANCIER INVEST

EMPOWER YOURSELF

## 2025-ci il üzrə İdarəetmə Hesabatı

CFI

**“CFI Financial İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyətinin**

**2025-ci il üzrə İdarəetmə**

**Hesabatı**

| | |
|---|---|
| 1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | “CFI Financial İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti, (bundan sonra - investisiya şirkəti və ya Şirkət),<br>VÖEN 1303538081, 30.01.2014 |
| 2.emitentin hüquqi ünvanı və olduğu yer; | Azərbaycan Respublikası, Bakı ş., Neftçilər prospekti 64, “Crescent Offices Business Center” 22-ci mərtəbə |
| 3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | Qurumun adı 04.11.2024-cü il tarixindən etibarən dəyişdirilmişdir.<br>Əvvəlki adı və təşkilati-hüquqi forması: “AzFinance İnvestisiya Şirkəti” QSC Qeydiyyata alındığı tarix- 04.11.2024-cü il |
| 4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Yoxdur |
| 5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | Yoxdur |
| 6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent “CFİ Financial Group Holdinq Limited” şirkətlər qrupunun törəmə şirkətidir |
| 7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | İnvestisiya şirkəti fəaliyyəti; |
| 8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | İnvestisiya şirkəti fəaliyyəti; İSN/L-7/2016<br>Müddətsiz |
| 9.emitentin təklif etdiyi məhsullar və xidmətlər; | Əsas investisiya xidmətləri:<br>• qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;<br>• fərdi investorların portfelinin idarə edilməsi;<br>• investisiya məsləhətlərinin verilməsi;<br>• qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;<br>• qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;<br>• mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli |

CFI

| | |
|---|---|
| | kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;<br>• marja ticarəti;<br>Yardımçı investisiya xidmətləri:<br>• qiymətli kağızların hesabının idarə edilməsi, o cümlədən qiymətli kağızların və törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi, mərkəzi depozitarın üzvü qismində müştərinin qiymətli kağızlarının saxlanması<br>• investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;<br>• qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;<br>• təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;<br>• əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi. |
| 10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | İşçilərin sayı - 37 nəfər;<br>rüblük dinamikası<br>2025 1-ci rübün sonuna – 6%<br>2-ci rübün sonuna – 24%<br>3-cü rübün sonuna – 0%<br>4-cü rübün sonuna – 0% |
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | Müşahidə Şurası:<br>• Üzv-Mazen Abbas<br>• Üzv-Karim Malas<br>İdarə Heyəti:<br>• Sədr-Qasımova Pərvanə Əlifağa qızı<br>• Üzv-Elie Aoun<br>• Üzv-Nour Jbarah<br>Audit Komitəsi:<br>• Sədr- Mazin Abbas<br>• Üzv-Karim Malas<br>• Üzv-Anas Juma |
| 12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | Hüquqi şəxs - 1 |
| 13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | CFİ FİNANCİAL GROUP HOLDİNG LİMİTED Şirkəti - 100%, 4550 ədəd səhm – təmsil edən Direktor Hisham Mansour. |
| 14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər | Emitentin “CFİ Asset Management” Məhdud Məsuliyyətli Cəmiyyətində 990 (doqquz yüz doxsan) payı mövcuddur (99% iştirak payı) |

CFI

| | |
|---|---|
| (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | |
| 15.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan); ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | Hesabat ili ərzində keçirilmiş yığıncaqlar:<br>1. 08.01.2025-ci il, Birləşmiş Ərəb Əmirlikləri, Dubay şəhəri, Bürj Daman Ofis Qülləsi – Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin edilməsi və Şirkətin nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi;<br>2. 11.02.2025-ci il, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr. 64 - 2025-ci il üzrə Şirkətin əməkdaşlarının mükafatlandırılması;<br>3. 02.05.2025-ci il, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr. 64 – Şirkətin strukturunun təsdiq edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlüyünə təyinatlar, Şirkətin nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi;<br>4. 30.05.2025-ci il, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr. 64 – 2024-cü il üzrə illik hesabatın təsdiq edilməsi<br>5. 17.10.2025-ci il, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr. 64 – Müşahidə Şurası sədrinin azad edilməsi və Nizamnaməyə dəyişikliklərin edilməsi |
| 16.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):<br><br>-investisiya qiymətli kağızın növü və forması;<br><br>- investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;<br>- investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;<br><br>- investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;<br><br>- hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);<br><br>- faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;<br>- investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | 1. Sənədsiz, adi səhmlər<br>AZ1001019715; 26.08.2015-ci il<br>Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 1 000 (bir min) ədəd;<br>1 000 000 (bir milyon) manat;<br><br>2. Sənədsiz, adi səhmlər<br>AZ1001019715; 29.09.2016-cı il<br>Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 550 (beş yüz əlli) ədəd;<br>550 000 (beş yüz əlli min) manat;<br><br>3. Sənədsiz, adi səhmlər<br>AZ1001019715; 21.11.2024-cü il<br>Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 3 000 (üç min) ədəd;<br>3 000 000 (üç milyon) manat;<br>Dividend ödənişi olmayıb<br><br>4. Sənədsiz, diskontlu təmin edilməmiş istiqrazlar<br>AZ 2001019713, 11.03.2021-ci il;<br>Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 1000 (bir min) ədəd;<br>1 000 000 (bir milyon) manat; |

CFI

| | |
|---|---|
| | "Bakı Fond Birjası" QSC, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan |
| 17.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | (see table below) Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi yoxdur |
| 18.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi | Yoxdur |
| 19.hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 30.04.2026 |
| 20.hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | www.cfi.trade<br>www.cbar.az/meas |

| İstiqamət | Əqdin tarixi | Əqdin məbləği |
|---|---|---|
| ƏKS-REPO | 07.01.2025 | 2 101 959.54 |
| ƏKS-REPO | 24.01.2025 | 1 622 800.00 |
| ƏKS-REPO | 13.02.2025 | 1 528 547.13 |
| ƏKS-REPO | 20.02.2025 | 1 510 348.95 |
| ƏKS-REPO | 13.03.2025 | 1 499 985.18 |
| ƏKS-REPO | 03.04.2025 | 1 299 829.71 |
| ƏKS-REPO | 10.04.2025 | 1 301 569.83 |
| ƏKS-REPO | 14.07.2025 | 1 400 000.00 |
| ƏKS-REPO | 11.08.2025 | 1 442 000.00 |
| ƏKS-REPO | 19.08.2025 | 1 400 000.00 |
| ƏKS-REPO | 08.09.2025 | 1 300 000.00 |

Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi yoxdur

**"CFI Financial İnvestisiya Şirkəti" QSC-nin İdarə Heyətinin Sədri** — **Pərvanə Qasımova**

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti CFI FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ Closed Joint-Stock Company Republic of Azerbaijan

**Maliyyə və mühasibatlıq departamentinin rəhbəri** — **İlahə Osmanova**

bakertilly
now, for tomorrow

# “CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Konsolidə edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

## “CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-4 |
| 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat | 5 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabat | 6 |
| Kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat | 8-9 |
| Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər | 10-54 |

## KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə müstəqil auditorların hesabatında təqdim olunan müstəqil auditorların rəyində olan müddəalar ilə birgə oxunmalıdır və "CFİ Financial İnvestisiya Şirkəti" QSC və onun törəmə müəssisəsinin (bundan sonra birlikdə "Qrup") konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik, 31 dekabr 2025-ci il tarixinə Qrupun konsolidə edilmiş maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş əməliyyat nəticələrini, konsolidə edilmiş kapitalda dəyişiklikləri və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən konsolidə edilmiş maliyyə hesabatlarının, Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun konsolidə edilmiş maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə konsolidə edilmiş maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması;
- Əgər Qrup yaxın gələcəkdə normal şəraitdə fəaliyyətini davam etdirəcəyi təqdirdə, fasiləsizlik prinsipi əsasında hesabat tarixi üçün konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Qrupun konsolidə edilmiş maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə konsolidə edilmiş maliyyə hesabatları 6 aprel 2026-cı il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyətinin adından:**

**Pərvanə Qasımova**
**İdarə Heyətinin sədri**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlahə Osmanova**
**Baş mühasib**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
**www.bakertilly.az**

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"CFİ Financial İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin səhmdarları və rəhbərliyinə:

***Rəy***

Biz "CFİ Financial İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin (əvvəlki adı "Az-Finance İnvestisiya Şirkəti" QSC) və onun törəmə müəssisəsinin (birlikdə "Qrup") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatdan, kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatlar da daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş konsolidə edilmiş maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixinə olan konsolidə edilmiş maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz konsolidə edilmiş maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Fasiləsizlik prinsipi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik***

Şərti rəy bildirmədən diqqətinizi konsolidə edilmiş maliyyə hesabatlarının 3 saylı Qeydinə yönəldirik. Qeydə əsasən Qrup 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə və həmin tarixə 4,243,403 AZN məbləğində xalis zərəri və Qrupun cari öhdəliklərinin cari aktivlərindən 504,401 AZN məbləğində artıq olması və bu halın Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi əsasında davam etdirmək qabiliyyətinə ciddi şübhə yaratmasına baxmayaraq, Qrup öz konsolidə edilmiş maliyyə hesabatlarını fasiləsizlik prinsipi fərziyyəsini tətbiq etməklə hazırlamışdır. Rəhbərliyin fikrincə Qrupun əsas səhmdarı Qrupun əməliyyatlarına maliyyə dəstəyi göstərməyə davam edəcək, bu səbəbdən konsolidə edilmiş maliyyə hesabatlarına yuxarıda qeyd olunan qeyri-müəyyənliyin səbəb olacağı nəticə ilə əlaqədar heç bir düzəliş daxil edilməmişdir.

ASSURANCE ADVISORY TAX LEGAL

Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

***Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.
- Konsolidə edilmiş maliyyə hesabatları üzrə rəy bildirmək üçün Qrup daxilində olan müəssisələr və ya biznes fəaliyyətləri haqqında maliyyə məlumatları ilə bağlı kifayət dərəcədə audit sübutları əldə edirik. Biz qrup auditinin idarə olunması, nəzarəti və həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq. Audit rəyimizə görə yalnız biz məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Biz həmçinin idarəetmə səlahiyyətləri verilmiş şəxslərə bəyan edirik ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq hallarda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərin nəzərinə çatdırılmış məsələlərdən cari dövr üzrə konsolidə edilmiş maliyyə hesabatlarının ən əhəmiyyətli olanlarını və bu səbəbdən əsas audit məsələləri hesab olunanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, bu məsələləri auditor hesabatımızda təsvir edirik.

Baker Tilly Azerbaijan

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

## "CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 8 | 1,806,510 | 606,012 |
| İstifadə hüququ olan aktivlər | 9 | 1,561,593 | 1,735,103 |
| Qeyri-maddi aktivlər | 10 | 70,903 | 74,591 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 21 | - | 15,077 |
| Digər aktivlər | 9 | 24,510 | 24,510 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **3,463,516** | **2,455,293** |
| **Cari aktivlər** | | | |
| Borc qiymətli kağızları üzrə investisiyalar | 11 | - | 22,000 |
| Pay qiymətli kağızları üzrə investisiyalar | 12 | 15,428 | 14,455 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 13 | 612,178 | 2,543,172 |
| Bankda və kassada olan nağd pul vəsaitləri | 14 | 902,034 | 3,603,119 |
| Digər aktivlər | | 53,353 | 65,676 |
| **Cəmi cari aktivlər** | | **1,582,993** | **6,248,422** |
| **CƏMİ AKTİVLƏR** | | **5,046,509** | **8,703,715** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| İcarə öhdəlikləri | 9 | 1,445,623 | 1,558,174 |
| Buraxılmış borc qiymətli kağızları | 16 | - | 905,754 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **1,445,623** | **2,463,928** |
| **Cari öhdəliklər** | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 14 | 680,050 | 125,115 |
| Buraxılmış borc qiymətli kağızları | 16 | 962,092 | - |
| İcarə öhdəlikləri | 9 | 278,420 | 278,420 |
| Digər öhdəliklər | 15, 7 | 166,832 | 79,357 |
| **Cəmi cari öhdəliklər** | | **2,087,394** | **482,892** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **3,533,017** | **2,946,820** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 17 | 4,550,000 | 4,550,000 |
| Kapital ehtiyatları | | 612,175 | 612,175 |
| (Yığılmış zərər)/bölüşdürülməmiş mənfəət | | (3,649,090) | 594,308 |
| **Qrupun təsisçilərinə aid olan kapital** | | **1,513,085** | **5,756,483** |
| Qeyri-nəzarət payı | | 407 | 412 |
| **Cəmi kapital** | | **1,513,492** | **5,756,895** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **5,046,509** | **8,703,715** |

**İdarə Heyətinin adından:**

**Pərvanə Qasımova**
**İdarə Heyətinin sədri**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlahə Osmanova**
**Baş mühasib**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-54-cü səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## "CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Konsaltinq xidmətləri üzrə gəlir | | - | 100,200 |
| Portfelin idarə olunması üzrə gəlir | | - | 53,509 |
| Digər gəlirlər | | 1,869 | 37,539 |
| **Cəmi gəlir** | | **1,869** | **191,248** |
| Xalis haqq və komissiya gəliri | 7, 18 | 165,183 | 170,311 |
| **Cəmi əməliyyat gəliri** | | **167,052** | **361,559** |
| İşçi heyəti ilə bağlı xərclər | 7, 19 | (1,465,942) | (732,400) |
| Əməliyyat xərcləri | 19 | (2,719,695) | (503,755) |
| **Əməliyyat zərəri** | | **(4,018,585)** | **(874,596)** |
| Ticarət qiymətli kağızları üzrə gəlir | 20 | 2,512 | 777,876 |
| Maliyyə gəliri | | 55,265 | 44,360 |
| Maliyyə xərci | 9, 16 | (239,084) | (185,914) |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər | 10 | (4,943) | (100,761) |
| Maliyyə aktivlərinin dəyərsizləşməsi | 13 | (22,721) | (85,000) |
| Ticarət platformaları üzrə zərər | 14 | - | (752,883) |
| Xarici valyuta mübadiləsi üzrə zərər | | (770) | - |
| **Mənfəət vergisindən əvvəl zərər** | | **(4,228,326)** | **(1,176,918)** |
| Mənfəət vergisi (xərci)/gəliri | 21 | (15,077) | 205,370 |
| **İl üzrə xalis zərər** | | **(4,243,403)** | **(971,548)** |
| **Cəmi məcmu zərər** | | **(4,243,403)** | **(971,548)** |
| **Cəmi məcmu zərərin:** | | | |
| - Qrupun təsisçilərinə məxsus hissəsi | | (4,243,398) | (971,381) |
| - Qeyri-nəzarət payına aid olan hissəsi | | (5) | (167) |
| **İl üzrə cəmi məcmu zərər** | | **(4,243,403)** | **(971,548)** |

**İdarə Heyətinin adından:**

**Pərvanə Qasımova**
**İdarə Heyətinin sədri**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlahə Osmanova**
**Baş mühasib**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-54-cü səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# "CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi | Qeyri-nəzarət payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə qalıq** | **1,550,000** | **612,175** | **1,565,689** | **3,727,864** | **579** | **3,728,443** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (971,381) | (971,381) | (167) | (971,548) |
| Nizamnamə kapitalında artım | 3,000,000 | - | - | 3,000,000 | - | 3,000,000 |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **4,550,000** | **612,175** | **594,308** | **5,756,483** | **412** | **5,756,895** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (4,243,398) | (4,243,398) | (5) | (4,243,403) |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | **4,550,000** | **612,175** | **(3,649,090)** | **1,513,085** | **407** | **1,513,492** |

**İdarə Heyətinin adından:**

**Pərvanə Qasımova**
**İdarə Heyətinin sədri**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlahə Osmanova**
**Baş mühasib**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-54-cü səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# "CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Mənfəət vergisindən əvvəl zərər | | (4,228,326) | (1,176,918) |
| Nağdsız maddələr üzrə düzəlişlər: | | | |
| Əmlak və avadanlıqların köhnəlməsi | 8, 9 | 379,077 | 77,380 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 10 | 3,688 | 11,732 |
| Ticarət qiymətli kağızları üzrə gəlir | 20 | (2,512) | (777,876) |
| Maliyyə gəliri | | (55,265) | (44,360) |
| Maliyyə xərci | 9, 16 | 239,084 | 185,914 |
| Qeyri-maliyyə aktivlərinin silinməsi | 10 | - | 100,761 |
| Maliyyə aktivlərinin dəyərsizləşməsi | 13 | 22,721 | 85,000 |
| Xarici valyuta mübadiləsi üzrə zərər | | 770 | - |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər | | 4,943 | - |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yönələn pul vəsaitlərinin hərəkəti** | | **(3,635,820)** | **(1,538,367)** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| Ticarət hesabında olan nağd vəsaitlərdə dəyişikliklər | | - | 216,545 |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə dəyişikliklər | | (603,112) | 463,916 |
| Müştərilərə veriləcək vəsaitlər üzrə dəyişikliklər | | 470,257 | - |
| Digər aktivlər üzrə dəyişikliklər | | 12,323 | (12,076) |
| Digər öhdəliklər üzrə dəyişikliklər | | 86,705 | (16,302) |
| **Mənfəət vergisi və faiz xərclərindən əvvəl əməliyyat fəaliyyətindən yönələn pul vəsaitlərinin hərəkəti** | | **(3,669,647)** | **(886,284)** |
| Ödənilmiş mənfəət vergisi | | - | (103,814) |
| Ödənilmiş faiz xərcləri | 9 | (182,746) | (248,286) |
| **Əməliyyat fəaliyyətindən yönələn xalis pul vəsaitləri** | | **(3,852,393)** | **(1,238,384)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Borc qiymətli kağızlarının satışı üzrə daxilolmalar, xalis | | 22,000 | 2,587,450 |
| Pay qiymətli kağızları üzrə daxilolmalar, xalis | | - | 4,489,627 |
| Əks repo müqavilələri üzrə kreditlərdən daxilolmalar/ (kreditlərin geri qaytarılması) | 13 | 2,511,385 | (2,511,385) |
| Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər üzrə ödənişlər | | (1,412,884) | (603,006) |
| Digər müəssisəyə verilmiş kredit | | - | (85,000) |
| Alınmış dividendlər | | 1,539 | 22,036 |
| Alınmış faizlər | | 55,265 | 63,621 |
| Əmlak, tikili və avadanlıqların satışından daxilolmalar | | 1,876 | - |
| **İnvestisiya fəaliyyətindən (yönələn)/daxil olan xalis pul vəsaitlərinin hərəkəti** | | **1,179,181** | **3,963,343** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Nizamnamə kapitalının buraxılması üzrə daxilolmalar | 17 | - | 3,000,000 |
| Buraxılmış borc qiymətli kağızlarının ödənilməsi | 16 | - | (2,392,884) |
| İcarə öhdəlikləri üzrə borcun ödənilməsi (əsas məbləğ) | 9 | (112,551) | (29,623) |
| **Maliyyələşdirmə fəaliyyətindən (yönələn)/daxil olan xalis pul vəsaitlərinin hərəkəti** | | **(112,551)** | **577,493** |

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTMA | | (2,785,763) | 3,302,452 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 14 | 3,478,004 | 175,552 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 14 | 692,241 | 3,478,004 |

**İdarə Heyətinin adından:**

**Pərvanə Qasımova**
**İdarə Heyətinin sədri**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlahə Osmanova**
**Baş mühasib**

6 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-54-cü səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

**Qrup və onun əsas fəaliyyəti**

"CFİ Financial İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti ("Cəmiyyət") Azərbaycan Respublikasında təsis edilmiş və qeydiyyata alınmışdır. "Az-Finance İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti 2 oktyabr 2024-cü il tarixində "CFI Financial Group Holding Limited" və cənab İlqar Rüstəmbəyli tərəfindən satın alındıqdan sonra Cəmiyyətin adı dəyişdirilmişdir. Cəmiyyət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təqdim olunmuş ISNL/L-7/2016 lisenziya nömrəsi əsasında fəaliyyət göstərir. 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə Cəmiyyətin birbaşa ana şirkəti "CFI Financial Group Holding Limited" olmuşdur.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə Qrupun səhmdarları aşağıdakı kimi olmuşdur:

| Səhmdarlar | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| "CFI Financial Group Holding Limited" | 100% | 90% |
| Cənab İlqar Rüstəmbəyli | - | 10% |
| **Cəmi** | **100%** | **100%** |

Hesabat tarixinə Cəmiyyətin son benefisiar səhmdarları cənab Hisham Mansour və cənab Eduardo Fakhoury-dir. 31 dekabr 2025-ci il tarixinə Cəmiyyət öz törəməsi "Az-Finance Asset Management" Məhdud Məsuliyyətli Cəmiyyətinin səhmlərinin 99%-nə sahibdir (31 dekabr 2024-cü il: 99%). Cəmiyyət və onun törəmə müəssisəsi bundan sonra birlikdə "Qrup" adlandırılacaq.

***Əsas fəaliyyət istiqamətləri.*** Qrupun əsas fəaliyyəti brokerlik, portfelin idarə edilməsi, CFD (Fərq müqaviləsi) xidmətlərinin təmin edilməsi, konsaltinq və underraytinq xidmətlərindən ibarətdir. Qrup Azərbaycan Respublikası daxilində fəaliyyət göstərir, həm daxili, həm də beynəlxalq bazarlarda brokerlik xidmətləri göstərir və müştərilərə ticarət əməliyyatları aparmaq üçün beynəlxalq ticarət platformasına çıxış təklif edir.

31 dekabr 2025-ci il tarixinə Qrupun işçilərinin sayı 37 nəfər təşkil etmişdir (31 dekabr 2024-cü il: 21 nəfər).

***Qrupun hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer.*** Qrupun hüquqi ünvanı və əsas fəaliyyət göstərdiyi yer Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, AZ1022, Neftçilər prospekti 64 ünvanıdır.

***Təqdimat valyutası.*** Hazırkı konsolidə edilmiş maliyyə hesabatları, əksi qeyd edilmədiyi halda Azərbaycan manatı ilə ("AZN") təqdim olunmuşdur.

## 2. QRUPUN ƏMƏLİYYAT MÜHİTİ

Qrupun fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Qrup inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir

Təchizat zəncirlərindəki əvvəlki pozuntular, Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə fonunda yaranan geosiyasi gərginliklər və qlobal tələbat strukturundakı dəyişikliklərdən sonra qlobal iqtisadiyyat 2024-cü və 2025-ci illər ərzində tənzimlənmə prosesini davam etdirmişdir. Əmtəə qiymətlərinin geosiyasi hadisələrə və qlobal ticarət axınlarındakı dəyişikliklərə həssas qalmasına baxmayaraq, əvvəlki illərlə müqayisədə inflyasiya təzyiqləri zəifləmişdir.

2025-ci il ərzində Azərbaycan iqtisadiyyatı dövlət tərəfindən həyata keçirilən iqtisadi islahatlar, sabit məzənnə rejimi və kifayət qədər xarici valyuta ehtiyatlarının mövcudluğu fonunda ümumi makroiqtisadi sabitliyi qoruyub saxlamışdır.

İlkin məlumatlara əsasən, 2025-ci ildə Azərbaycanda ÜDM 2024-cü illə müqayisədə 1.4% artaraq 129.1 milyard AZN-ə (75.9 milyard ABŞ dollarına) çatmışdır. Neft və qaz sektorunda yaradılmış əlavə dəyər 1.6% azaldığı halda, qeyri-neft sektorunda yaradılmış əlavə dəyər 2.7% artmışdır.

2025-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi 43.8 milyard ABŞ dolları təşkil etmişdir. Bu məbləğin 22.6 milyard ABŞ dolları ixrac olunan malların, 21.2 milyard ABŞ dolları isə idxal olunan malların payına düşərək, 1.5 milyard ABŞ dolları məbləğində müsbət ticarət saldosu formalaşmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankının (ARMB) məlumatına əsasən 2025-ci ilin yanvar-dekabr ayları üzrə istehlak qiymətləri indeksi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 105.6% təşkil etmişdir. ARMB monetar siyasətinin idarə edilməsi və Azərbaycan manatının sabitliyinin təmin edilməsi məqsədilə fəaliyyətini davam etdirmişdir. Qlobal inflyasiya tendensiyalarına uyğun olaraq uçot dərəcəsi tənzimlənmiş və 31 dekabr 2025-ci il tarixinə yenidən maliyyələşdirmə dərəcəsi 7.0% müəyyən edilmişdir (31 dekabr 2024-cü il: 7.25%).

31 dekabr 2025-ci il tarixinə Azərbaycanın strateji xarici valyuta ehtiyatları, 31 dekabr 2024-cü il tarixinə 71 milyard ABŞ dolları ilə müqayisədə 83.5 milyard ABŞ dolları təşkil edərək Azərbaycan manatının sabitliyi və bütövlükdə makroiqtisadi dayanıqlılığı dəstəkləyən əhəmiyyətli artımı əks etdirmişdir.

"Fitch" reytinq agentliyi Azərbaycanın uzunmüddətli xarici valyuta kredit reytinqini "BBB-" səviyyəsində, 2025-ci il üzrə sabit proqnozla qiymətləndirmişdir. Bu qiymətləndirmə güclü maliyyə göstəriciləri, güclü xarici balans mövqeyi və əhəmiyyətli dövlət aktivlərini əks etdirir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı vergi, hüquqi, qanunverici və siyasi sahədə irəliləyişlər ilə yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi, maliyyə və monetar tədbirlərdən də asılıdır. Rəhbərlik iqtisadi mühitdə baş verən hadisələrin Cəmiyyətin əməliyyatlarına təsirini və nəticə etibarilə bunun Cəmiyyətin maliyyə vəziyyətinə necə təsir edəcəyini proqnozlaşdırmaq iqtidarında deyil.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

### Maliyyə hesabatlarının hazırlanmasının əsasları

Konsolidə edilmiş maliyyə hesabatlarına Cəmiyyət və onun törəmə müəssisəsinin (Cəmiyyət tərəfindən idarə olunan müəssisə) maliyyə hesabatları daxildir. Nəzarət, Qrupun fəaliyyətindən fayda əldə etmək üçün müəssisənin maliyyə və əməliyyat siyasətini idarə etmək səlahiyyətinə malik olduğu zaman əldə edilir.

İl ərzində əldə edilmiş və ya silinmiş törəmə müəssisəyə məxsus gəlir və xərclər Qrupun törəmə müəssisə üzərində nəzarəti əldə etdiyi tarixdən başlayaraq və həmin nəzarətin başa çatdığı tarixə qədər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatlara daxil edilir.

Törəmə müəssisənin cəmi məcmu gəliri, qeyri-nəzarət iştirak paylarının defisit qalığı ilə nəticələnsə belə, Qrupun kapital sahiblərinə və qeyri-nəzarət iştirak paylarına aid edilir.

Zəruri olduğu halda, törəmə müəssisənin uçot siyasətlərinin Qrupun uçot siyasətinə uyğun olması üçün törəmə müəssisənin maliyyə hesabatlarına düzəlişlər edilir.

Qrup üzvləri arasında əməliyyatlar ilə əlaqədar olaraq bütün qrupdaxili aktivlər və öhdəliklər, kapital, gəlir, xərclər və pul vəsaitlərinin hərəkəti konsolidə edilmiş maliyyə hesabatlarında nəzərə alınmır.

**Konsolidə edilmiş maliyyə hesabatları**

Müəssisələrin birləşməsi alış metodu üzrə uçota alınır. Alışın dəyəri alış tarixindəki ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləği və satın alınan müəssisədə qeyri-nəzarət payları məbləğinin məcmusu şəklində ölçülür. Hər bir müəssisə birləşməsi üçün alıcı müəssisə satın alınan müəssisədə qeyri-nəzarət paylarını satın alınan müəssisənin xalis müəyyən edilə bilən aktivlərinin proporsional payı ilə ölçür. Çəkilən alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə aid edilir.

Qrup hər hansı müəssisəni satın aldıqda, o, müvafiq təsnifləşdirmə üçün və müqavilə şərtləri, iqtisadi şərait və alış tarixində qüvvədə olan şərtlərə əsasən təyin olunma üçün nəzərdə tutulmuş maliyyə aktiv və öhdəliklərini qiymətləndirir. Bura əsas müqavilədə əlaqədar törəmə alətlərin satın alınan müəssisə tərəfindən ayrılması da aid edilir. Müəssisələrin mərhələli birləşməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə hər əvvəlki mərhələdə sahib olduğu səhm payı, alış tarixindəki ədalətli dəyərlə yenidən qiymətləndirilir və yaranan gəlir və ya zərər il üzrə mənfəət və ya zərər kimi əks etdirilir. Alıcı müəssisə tərəfindən köçürülməli olan hər hansı şərti ödəniş alış tarixində ədalətli dəyərlə tanınır. Kapital kimi təsnifləşdirilmiş şərti ödəniş yenidən ölçülmür və sonrakı ödəniş kapital daxilində uçota alınır. Maliyyə aləti olan və 9 saylı "Maliyyə alətləri" adlı MHBS ilə əhatə olunan öhdəlik kimi təsnifləşdirilmiş şərti ödəniş ədalətli dəyərində dəyişikliklər 9 saylı MHBS-yə uyğun olaraq mənfəət və ya zərərdə tanınmaqla ədalətli dəyərlə ölçülür. 9 saylı MHBS ilə əhatə olunmayan digər şərti ödəniş, hər hesabat tarixində ədalətli dəyərdə dəyişikliklər mənfəət və ya zərərdə tanınmaqla ədalətli dəyərlə ölçülür.

**Birgə nəzarət altında olan müəssisələrlə birləşmələr**

Qrup birgə nəzarət altında olan müəssisələr ilə birləşmələr üzrə mühasibat uçotunun alış metodunu tətbiq edir.

**Təqdimat meyarlarının digər əsasları**

Hazırkı konsolidə edilmiş maliyyə hesabatları əksi qeyd olunmadığı təqdirdə Azərbaycan manatı ("AZN") ilə təqdim olunmuşdur. Konsolidə edilmiş maliyyə hesabatları MZVƏD-də uçota alınmış kapital və borc qiymətli kağızları üzrə investisiyalar istisna olmaqla, tarixi dəyər konvensiyası əsasında hazırlanmışdır.

**Cari və ya uzunmüddətli təsnifləşdirmə**

Qrup cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Qrup aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- aktiv adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya aktivin realizasiya olunması ehtimal olunduqda;

- aktiv əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- aktivin hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- aktiv hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnifləşdirilir.

Qrup aşağıdakı hallarda öhdəlikləri cari öhdəlik kimi təsnifləşdirir:

- adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli kimi təsnif edir.

**Fasiləsizlik prinsipi**

Bu konsolidə edilmiş maliyyə hesabatları Qrupun fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və son dövrlərdə əməliyyat zərərləri və mənfi pul axınına baxmayaraq yaxın gələcəkdə işini davam etdirəcəyini nəzərdə tutaraq hazırlanmışdır. Xüsusilə də, Qrup 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə 4,243,403 AZN məbləğində xalis zərər qeydə almışdır, gəlir sabit xərcləri ödəmək üçün kifayət etməmişdir. 31 dekabr 2025-ci il tarixinə Qrupun cari öhdəlikləri onun cari aktivləri ilə müqayisədə 504,401 AZN məbləğində üstünlük təşkil etmişdir. Hazırkı maliyyə hesabatları Qrup öz fəaliyyətini fasiləsizlik prinsipi əsasında davam etdirə bilmədiyi halda zəruri olacaq düzəlişləri, məsələn, aktivlərin bərpa oluna bilən məbləğlərinə silinməsi və ya uzunmüddətli aktiv və öhdəliklərin cari aktiv və öhdəliklərinə yenidən təsnifləşdirilməsini əks etdirmir. 4 saylı Qeydə nəzər salın.

**Xarici valyuta məzənnələri**

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı Qrupun funksional valyutasından fərqli valyutada (xarici valyuta məzənnələri) həyata keçirilmiş əməliyyatlar, əməliyyatlar tarixində qüvvədə olan valyuta dərəcələrində tanınır. Hər bir hesabat tarixinin sonunda, monetar maddələr həmin tarixdə qüvvədə olan xarici valyuta dərəcələrində qeydə alınır. Xarici valyutada əks olunan ədalətli dəyərdə ölçülən qeyri-monetar maddələr ədalətli dəyərin təyin olunduğu tarixdə qüvvədə olan dərəcələrlə çevrilir. Xarici valyutada tarixi dəyər əsasında ölçülən qeyri-monetar maddələr dəyişdirilmir.

Monetar maddələr üzrə məzənnə fərqləri baş verdiyi halda konsolidə edilmiş mənfəət və ya zərər hesabatında tanınır.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə xarici valyuta qalıqlarına çevrilməsi üçün istifadə olunan əsas məzənnə dərəcələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| ABŞ dolları/AZN | 1.7000 | 1.7000 |
| Avro/AZN | 2.0022 | 1.7724 |

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar hər hansı yığılmış köhnəlmə və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla ilkin dəyərdə uçota alınır.

Hər bir hesabat dövrünün sonunda Qrup öz əmlak və avadanlıqlarını dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa Qrup satış xərcləri çıxılmaqla aktivin ədalətli dəyəri və aktivin istifadə dəyəri arasında ən yüksək olanı ilə bərpa olunan məbləği qiymətləndirir. Əmlak və avadanlıqların balans dəyəri onların ehtimal olunan bərpa oluna bilən məbləğindən böyük olarsa, həmin məbləğ bərpa oluna bilən məbləğə qədər silinir və fərq mənfəət və ya zərər hesabatında dəyərsizləşmə zərəri olaraq tanınır.

Əmlak və avadanlıqların silinməsi üzrə gəlir və zərərlər onların balans dəyərinə əsasən müəyyən olunur və mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatda gəlir/(zərər) olaraq qeydə alınır.

Xərclər mövcud olduqda təmir və istismar xərcləri mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatda qeydə alınır.

Köhnəlmə aktivlərin ilkin dəyərinə onların aşağıdakı illik faiz dərəcəsi nəzərə alınmaqla azalan qalıq metodu ilə tətbiq edilir:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Kompüter və ofis avadanlıqları | 25% | 25% |
| İcarə aktivlərinin təkmilləşdirilməsi | 10% | 10% |
| İstifadə hüququ olan aktivlər | 10% | 10% |
| Nəqliyyat vasitələri | 13% | - |
| Digər | 20% | 20% |

Köhnəlmə metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir.

Silindikdə və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak və avadanlıqların tanınmasına xitam verilir. Əmlak və avadanlıqların tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**İstifadə hüququ olan aktivlər**

Qrup ofis icarəyə götürür. Müqavilələr icarə və qeyri-icarə elementlərindən ibarət ola bilər. Qrup nisbi qiymətləri əsasında icarə və qeyri-icarə elementləri üçün müqavilə üzrə müəyyən məbləğ nəzərdə tutur. İcarə üzrə yaranan aktivlər ilkin olaraq cari dəyər əsasında ölçülür. İstifadə hüququ olan aktivlər aşağıdakılardan ibarət olan dəyər əsasında ölçülür:

- icarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği;
- əldə edilən icarə faizləri çıxılmaqla başlanğıc tarixində və ya ondan əvvəl əldə olunan istənilən icarə ödənişləri;
- hər hansı ilkin birbaşa xərclər; və
- icarə müqavilələri əsasında tələb olunan şərtlər əsasında aktivin bərpa olunması xərcləri.

İstifadə hüququ olan aktivlər aktivin faydalı istifadə müddəti və icarə müddəti arasında ən qısa olanı ilə düz xətt metodu əsasında amortizasiya olunur. Qrup satınalma opsiyasından istifadə etməyə əsaslı şəkildə əmin olduqda, istifadə hüququ olan aktivlər əsas aktivlərin faydalı istifadə müddəti ərzində amortizasiya olunur. İstifadə hüququ olan aktivlər üzrə amortizasiya düz xətt metodu əsasında hesablanır.

**Qeyri-maddi aktivlər**

Qrupun qeyri-maddi aktivlərinə əsasən brokerlik və qiymətli kağızlarla ticarətlə bağlı digər fəaliyyətlər üçün qeyri-müəyyən faydalı istifadə müddəti olan əldə edilmiş lisenziyalar və abunəliklər daxildir.

Hər bir hesabat dövrünün sonunda Qrup öz qeyri-maddi aktivlərinin balans dəyərlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa, dəyərsizləşmə zərərinin məbləğini (əgər varsa) təyin etmək məqsədilə belə aktiv üzrə bərpa oluna bilən dəyər ehtimal olunur. Fərdi aktiv üzrə bərpa oluna bilən dəyərin təyin edilməsi mümkün olmadıqda Qrup aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin bərpa oluna bilən dəyərini təhlil edir.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) üzrə bərpa oluna bilən dəyər aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) balans dəyərindən azdırsa, onun balans dəyəri bərpa oluna bilən dəyərə qədər azaldılır. Müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə qeydə alınmazsa, dəyərsizləşmə zərəri dərhal mənfəət və zərər hesablarında tanınır, bu halda dəyərsizləşmə zərəri yenidən qiymətləndirmənin azalması kimi nəzərə alınır.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) balans dəyəri onun bərpa oluna bilən dəyərinin yenidən təyin edilmiş məbləğinə qədər artırılır, amma yeni təyin edilmiş balans dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə zərərlərinin tanınmasından öncə mövcud olan balans dəyərindən daha çox ola bilməz. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır. Aktiv, yenidən qiymətləndirmə texnikasına görə uçota alındıqda qalıq dəyərinin yüksəlməsindən yaranan fərq yenidən qiymətləndirmə nəticəsində dəyərin artması kimi tanınır.

Silindikdə və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə qeyri-maddi aktivlərin tanınmasına xitam verilir. Qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin balans dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**Maliyyə alətləri - əsas ölçülmə şərtləri**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri aşağıda qeyd olunduğu kimi ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyərin ən uyğun göstəricisi fəal bazardakı dəyəridir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. 5 saylı qeydə istinad edin.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis qalıq dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir.

Cari dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə alətlərinin ilkin tanınması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. Ilkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiq edilir. Ilkin tanınma zamanı mənfəət və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır və bu eyni maliyyə aləti ilə aparılan müşahidə oluna bilən cari bazar əməliyyatları və ya giriş məlumatları yalnız müşahidə oluna bilən bazar məlumatlarını özündə əks etdirən qiymətləndirmə üsulları ilə təsdiq oluna bilər.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Qrupun maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

**Maliyyə alətlərinin təsnifatı**

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGVƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZVƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə yalnız əsas məbləğ və qalan əsas məbləğ üzrə faiz ödənişlərindən ibarət pul vəsaitlərinin yaranmasına səbəb olur.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə yalnız əsas məbləğ və qalan əsas məbləğ üzrə faiz ödənişlərindən ibarət pul vəsaitlərinin yaranmasına səbəb olur.

Alqı-satqı üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Qrup ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də ölçülən alətlər kimi təsnif edilir

Bununla yanaşı, ilkin tanıma zamanı Qrup amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi o halda təsnif edə bilər ki, bu, yarana biləcək uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Maliyyə aktivləri – təsnifat və müvafiq qiymətləndirmə – biznes model**

Qrup maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirəcək, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş qaydalar və hədəflər, həmin qaydaların təcrübədə tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfel göstəricilərinin necə qiymətləndirilməsi və Qrupun rəhbərliyinə necə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerlərinin necə mükafatlandırılması – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyətinə dair ehtimallar. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Qrupun hədəflərinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsinin bir hissəsi olaraq nəzərə alınır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi.**

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Qrup alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını özündə əhatə edəcək.

Qiymətləndirmə zamanı Qrup aşağıdakıları nəzərə alır:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- leverec xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Qrupun iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər (məs. reqressiz aktivlər); və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məs. faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

**Maliyyə aktivlərinin yenidən təsnifatı**

Maliyyə aktivləri Qrupun maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

Qrup AD və DMGVƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə EOKZ-ni perspektiv əsasda ölçür. Qrup EOKZ-ni ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır.

EOKZ-nin ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimal olunan məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmüş borc alınmış vəsaitlər EOKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. DMGVƏD-də borc alətləri üçün EOKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya olunmuş dəyərindəki dəyişikliklər mənfəət və ya zərərdə, balans dəyərindəki digər dəyişikliklər isə DMGVƏD borc alətləri üzrə zərərlər çıxılmaqla DMG-də tanınır.

Qrup dəyərsizləşmə üzrə üç mərhələli model təqdim edir. Bu model ilkin tanınmadan sonra kredit keyfiyyətində dəyişikliyə əsaslanır. İlkin tanımada kredit üzrə dəyərsizləşməyən maliyyə aləti 1-ci Mərhələyə təsnif edilir. 1-ci Mərhələdə maliyyə aktivləri EOKZ-nin ömürlük hissəsinə bərabər olan miqdarda növbəti 12 ay ərzində mümkün olan nəticələrə və ya əgər qısadırsa ("12 aylıq EOKZ") müqavilə müddətinə qədər ölçülür. Əgər Qrup KRƏA-nı ilkin tanınmadan sonra müəyyən edirsə, aktiv 2-ci Mərhələyə köçürülür və onun EOKZ-si ömürlük EOKZ əsasında, müqavilə əsasında son ödəmə müddətinə qədər, lakin əgər varsa ehtimal olunan ödənişlər nəzərə alınmaqla hesablanır ("Ömürlük EOKZ").

Qrupun KRƏA-nın baş verməsini necə müəyyən etdiyi haqqında 22 saylı Qeydə nəzər salın. Əgər Qrup maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsini müəyyən edirsə, aktiv 3-cü Mərhələyə köçürülür və EOKZ Ömürlük EOKZ ilə ölçülür. Qrupun kredit üzrə dəyərsizləşmə üzrə aktiv və defolt anlayışları 22 saylı Qeyddə açıqlanır. Satın alındıqda və ya əldə edildikdə kredit üzrə dəyərsizləşməyə məruz qalmış aktivlər ("SƏKD" aktivləri) üçün EOKZ hər zaman Ömürlük EOKZ ilə ölçülür. SƏKD aktivləri ilkin tanınma zamanı, məsələn, əldə edilmiş dəyərsizləşdirilmiş kreditlər kimi dəyərsizləşmiş maliyyə aktivləridir. 22 saylı Qeyd EOKZ ölçülməsində istifadə edilən giriş, fərziyyə və qiymətləndirmə üsulları haqqında, eyni zamanda Qrupun EOKZ modellərində proqnozlaşdırılan məlumatları necə əhatə etdiyini izah edir.

**Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi**

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi balans dəyərindən çıxılmaqla;
- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin balans məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Qrup aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin hərəkəti üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları**

Qrup maliyyə öhdəliklərini aşağıdakı qiymətləndirilmə kateqoriyalarına təsnifləşdirir:

(a) MZVƏD kateqoriyasında ölçülən maliyyə öhdəlikləri. Bu kateqoriya ticarət üçün saxlanılan və ilkin tanınma zamanı MZVƏD kateqoriyası kimi müəyyən edilən maliyyə öhdəliklərini ayrıca göstərir.
(b) Amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə öhdəlikləri.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

**MZVƏD kateqoriyasında ölçülən maliyyə öhdəlikləri**

İlkin tanınma zamanı Qrup bəzi öhdəliklərini MZVƏD kateqoriyasında ölçə bilər. Belə öhdəliklər üzrə gəlir və zərər digər məcmu gəlirlərdə qeydə alınan və sonradan mənfəət və ya zərərə yenidən təsnifləşdirilməyən öhdəlik üzrə (bazar şərtlərindəki dəyişikliklərə aid olmayan və nəticədə bazar riskinə səbəb olan məbləğ kimi müəyyən edilir) kredit riskindəki dəyişikliklər ilə əlaqəli olan ədalətli dəyərdəki dəyişikliyin məbləği istisna olmaqla, mənfəət və ya zərərin tərkibində tanınır. Belə bir təqdimat mühasibat uyğunsuzluğu yaratmadığı və ya onu artırmadığı təqdirdə mümkündür. Bu halda öhdəlik üzrə kredit riskindəki dəyişikliklər ilə əlaqəli olan gəlir və zərər də mənfəət və ya zərərin tərkibində göstərilir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, banklarda tələb edilənədək saxlanılan depozitlər və ilkin ödəmə müddəti üç ay və daha az olan digər qısamüddətli yüksək likvidli investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı amillərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) onlar müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün saxlanılır və bu pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir və (ii) onlar MZVƏD kateqoriyasına aid edilmir.

Məhdudlaşdırılmış qalıqlar pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə daxil edilmir. Hesabat tarixindən ən azı on iki ay sonra öhdəliyin yerinə yetirilməsi üçün mübadilə və ya istifadədən məhdudlaşdırılmış qalıqlar digər cari aktivlərə daxil edilir. Müştərinin pul vəsaitləri də həmçinin pul vəsaitləri və onların ekvivalentlərinə daxil edilmir.

**Fərq üzrə müqavilələr (CFD-lər) və qarşılıqlı əlaqəli müqavilələr**

***Fəaliyyətin xarakteri***

Qrup müştərilərinə fərq üzrə müqavilələr (CFD-lər) təqdim edərkən əsas tərəf kimi çıxış edir. Müştəri mövqeyindən yaranan bazar riskini idarə etmək məqsədilə Qrup öz ana müəssisəsi ilə qarşılıqlı əsasda əvəzləşdirici törəmə müqavilə bağlayır. "Maliyyə alətləri" adlı 9 saylı MHBS-yə əsasən CFD-lər törəmə maliyyə alətləridir.

***Tanınma və ilkin ölçülmə***

Müştərilər ilə bağlanmış fərq üzrə müqavilələr və ana müəssisə ilə qarşılıqlı əlaqəli müqavilələr sövdələşmə tarixində ədalətli dəyərdə tanınır. Əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

*Sonrakı ölçülmə*

Müştərilər ilə fərq üzrə müqavilələr və qarşılıqlı əlaqəli törəmə müqavilələr mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ölçülür (MZVƏD). Ədalətli dəyərdə dəyişikliklər yarandıqları dövrdə xalis ticarət gəliri daxilində mənfəət və ya zərərdə tanınır. Ədalətli dəyər əsas alətlərin müşahidə edilə bilən bazar qiymətlərinə müvafiq olaraq müəyyən olunur və lazım olduğu təqdirdə "Ədalətli dəyərin ölçülməsi" adlı 13 saylı MHBS-yə uyğun olaraq qiymətləndirmə texnikalarından istifadə etməklə tənzimlənir.

*Təqdimat*

Müştərilər ilə fərq üzrə müqavilələr aşağıdakı kimi təqdim olunur:

- Ədalətli dəyər müsbət olduqda maliyyə aktivləri;
- Ədalətli dəyər mənfi olduqda maliyyə öhdəlikləri.

Ana müəssisə ilə qarşılıqlı törəmə mövqelər əvəzləşdirmə meyarları qarşılanmadığı halda ümumi əsasda təqdim olunur. Qısamüddətli xüsusiyyəti nəzərə alınaraq bu qalıqlar ümumilikdə cari olaraq təsnifləşdirilir.

*Əvəzləşdirmə*

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız Qrupun qarşılıqlı əvəzləşdirmə hüququ olduqda və hesablaşmanı ya xalis əsasda, ya da eyni vaxtda həyata keçirmək niyyəti olduqda qarşılıqlı əvəzləşdirilərək xalis şəkildə təqdim edilir.

***Risklərin idarə edilməsi və qarşılıqlı əlaqəli müqavilələr***

Qrup, müştərilərin fərq üzrə müqavilələr mövqelərindən yaranan bazar riskini iqtisadi cəhətdən hedc etmək məqsədilə ana müəssisəsi ilə qarşılıqlı əlaqəli törəmə müqavilələr bağlayır.

Bu müqavilələr hedc uçotu əlaqələrində nəzərdə tutulmayıb. Belə ki:

- Müştərilərin fərq üzrə müqavilələr mövqeləri üzrə gəlir və zərərlər qarşılıqlı əlaqəli müqavilələr üzrə əks istiqamətli dəyişikliklər hesabına əvəzləşdirilir;
- Qrupun bazar riskinə məruz qalması, zaman fərqi, qarşı tərəf riski və əməliyyat faktorları kimi qalıq risklərlə məhdudlaşdırılmışdır.

Bu səbəbdən Qrupun əsas gəlir mənbəyi bazardakı dəyişikliklər deyil, daha çox spredlər və komissiya haqlarıdır.

*Ədalətli dəyər iyerarxiyası*

Fərq üzrə müqavilələr və əlaqədar qarşılıqlı törəmə alətlərin qiymətləndirməsi 13 saylı MHBS-yə müvafiq olaraq müşahidə edilə bilən bazar məlumatları, o cümlədən əsas alətlərin qiymətlərinə əsaslandığından, fərq üzrə müqavilələr və əlaqədar qarşılıqlı törəmə alətlər ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsi daxilində təsnifləşdirilir.

**Fidusiar fəaliyyətlər**

Qrup müştəriləri adından aktivlərin saxlanması və ya investisiyası ilə nəticələnən etibarlılıq və digər fidusiar xidmətlər göstərir. Fidusiar aktivlər və ya idarəetməyə verilmiş aktivlər ("İVA") tanınma meyarlarına cavab verilmədiyi təqdirdə, Qrupun aktivləri olmadığı üçün Qrupun maliyyə hesabatlarında əks olunmur. Etibarlılıq və digər fidusiar xidmətlərin göstərilməsindən əldə edilən gəlir, xidmətlərin təmin olunduğu kimi tanınır.

İdarəetməyə verilmiş aktivlər ("İVA") – müştərilərə və sifarişçilərə məxsus olan və Qrupun müxtəlif hüquqlara sahib olduğu, aktiv və passiv şəkildə idarə olunan aktivlərdir. Bu aktivlər borc qiymətli kağızları, pay qiymətli kağızları və ya broker hesablarında olan pul vəsaitləri şəklində ola bilər.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə Qrupun fidusiar fəaliyyətləri üzrə investisiyaları olmamışdır.

**Borc qiymətli kağızları üzrə investisiyalar**

Biznes modeli və pul vəsaitlərinin hərəkəti xarakteristikalarına əsasən, Qrup borc qiymətli kağızlarına qoyduğu investisiyaları AD, DMGVƏD və ya MZVƏD kateqoriyaları üzrə təsnifləşdirir. Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar mühasibat uçotu mühitinin uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaltmaq üçün könüllü olaraq MZVƏD-də təyin edilmirlərsə, belə investisiyalar AD-də təsnifləşdirilir.

Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması və satılması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar MZVƏD-də təyin edilirlərsə, DMGƏD-də təsnifləşdirilirlər. Bu aktivlər üzrə faiz gəlirləri effektiv faiz dərəcəsi metodundan istifadə edərək hesablanır və mənfəət və ya zərərdə tanınır. Ehtimal olunan kredit zərəri modelindən istifadə etməklə ehtimal olunan dəyərsizləşmə ehtiyatı il üzrə mənfəət və ya zərərdə tanınır. Balans dəyəri üzrə olan bütün digər dəyişikliklər DMG-də tanınır. Borc qiymətli kağızlarının tanınması dayandırılan zaman, əvvəllər DMG-də tanınan məcmu gəlir və ya zərərlər DMG-dən çıxarılaraq mənfəət və ya zərər hesablarında təsnifləşdirilir. Borc qiymətli kağızları üzrə investisiyalar AD və ya DMGVƏD-ə dair meyarlara cavab vermirsə, MZVƏD-də təsnifləşdirilir. Bu opsiyanın tətbiqi müxtəlif mühasibat uçotu əsasları üzrə tanınan və ya ölçülən maliyyə aktivləri və maliyyə öhdəlikləri arasındakı mühasibat uçotu uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaldırsa, Qrup ilkin tanınma zamanı MZVƏD-də olan borc qiymətli kağızları üzrə investisiyaları qəti şəkildə təyin edə bilər.

Borc qiymətli kağızları üzrə investisiyalar MZVƏD-də tanınır və silinmələr ilə bağlı istənilən kredit riskini əks etdirir və Qrupun kredit riskinə maksimum təsirini təmsil edir.

**Pay qiymətli kağızları üzrə investisiyalar**

MZVƏD kateqoriyasında ölçülən pay qiymətli kağızları korporativ səhmlərdən, ticarət üçün saxlanılan qiymətli kağızlardan və ilkin tanınma zamanı DMGVƏD kateqoriyasına aid edilməyən digər pay qiymətli kağızlarından ibarətdir. Pay qiymətli kağızlarının hər biri korporativ səhmlərdir və ticarət üçün saxlanılan qiymətli kağızları təmsil edir.

**Müştərilərə ödəniləcək vəsaitlər**

Qrup ilkin tanınma zamanı MZVƏD-də ölçülən müştərilərə ödəniləcək vəsaitləri təyin edir. Bu öhdəliklər üzrə gəlirlər və zərərlər, DMG-də qeyd olunan və sonradan mənfəət və ya zərərə yenidən təsnifləşdirilməyən həmin öhdəliyin (bazar riskinin artırılmasına təkan verən bazar şərtləri üzrə dəyişikliklərə aid olmayan məbləğ kimi müəyyən edilir) kredit riskinə edilən dəyişikliklərə aid olan ədalətli dəyər üzrə dəyişiklik məbləğindən başqa, mənfəət və ya zərərdə təqdim edilir. Belə təqdimat, mühasibat uyğunsuzluğunun yaranması və ya genişlənməsinə səbəb olduğu hallarda, öhdəliyin kredit riskinə edilən dəyişikliklərə aid olan mənfəət və zərərlər də mənfəət və ya zərər hesablarında təqdim olunur.

Müştərilərə ödəniləcək vəsaitlər korporativ və fərdi müştərilərdən ibarətdir, korporativ müştərilər 2024-cü ildə 4% təşkil etmişdir (31 dekabr 2024-cü il: 25%).

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları və digər alınacaq vəsaitlər Qrup tərəfindən aktivlərin idarə olunması xidmətləri həyata keçirilən broker əməliyyatlarından alınacaq vəsaitlər və müştərilərdən alınacaq vəsaitlər üzrə tanınır. Debitor borcları və digər alınacaq vəsaitlər ilkin olaraq ədalətli dəyərdə tanınır və sonradan effektiv faiz metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür.

Qrup alınacaq komissiya haqları üçün ehtimal olunan kredit zərərlərinin hesablanması üzrə ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri eyni zərər modellərinə (məsələn, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi) malik olan müxtəlif müştəri seqmentləri üzrə vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Qrupun tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Qrup, tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərtlərdə və iqtisadi şəraitdə dəyişikliklərə həssasdır. Qrupun tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Repo və əks repo müqavilələri**

Qrup mülkiyyət riskləri və mükafatlarının hamısını özündə saxladığından, müəyyən edilmiş gələcək tarixdə repo müqavilələri əsasında satılan qiymətli kağızlar, maliyyə vəziyyəti haqqında hesabatdan çıxarılmır. Alınmış müvafiq pul vəsaitləri, əməliyyatın iqtisadi mahiyyətini Qrupa veriləcək kredit kimi əks etdirən repo müqavilələri əsasında borc alınmış vəsaitlər kimi yığılmış faizlər də daxil olmaqla, geri qaytarılması nəzərdə tutulan müvafiq öhdəliyi olan bir aktiv kimi maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Satış və yenidən satın alma qiymətləri arasındakı fərq faiz xərcləri kimi qəbul edilir və EFD-dən istifadə edərək müqavilə müddəti ərzində hesablanır.

Qarşı tərəfin qiymətli kağızları satmaq və ya yenidən girov qoymaq hüququ olduqda, Qrup bu qiymətli kağızları, maliyyə vəziyyəti haqqında hesabatında, müvafiq olaraq, ticarət məqsədilə təminat olaraq girov qoyulmuş maliyyə aktivi və ya toplanmaq və ya satmaq məqsədilə təminat olaraq qoyulmuş maliyyə investisiyası kateqoriyasında yenidən təsnifləşdirir.

Hesablanmış faizlər də daxil olmaqla ödənilmiş kompensasiya, əməliyyatın iqtisadi mahiyyətini Qrup tərəfindən kredit kimi əks etdirən əks repo müqavilələri əsasında debitor borcları daxilində maliyyə vəziyyəti haqqında hesabatda uçota alınır. Alqı-satqı qiymətləri arasındakı fərq xalis faiz gəlirində uçota alınır və EFD-dən istifadə etməklə müqavilənin qüvvədə olduğu müddət ərzində hesablanır.

Yenidən satış üçün nəzərdə tutulan müqavilələr əsasında satın alınmış qiymətli kağızlar sonradan üçüncü şəxslərə satılarsa, qiymətli kağızların qaytarılması öhdəliyi ticarət üçün saxlanılan maliyyə öhdəliklərində qısa satış kimi qeydə alınır və xalis ticarət gəlirinə daxil edilən hər hansı gəlir və ya zərərlə ədalətli dəyərdə ölçülür.

**Digər öhdəliklər**

Digər öhdəliklər qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirdiyi zaman hesablanır və ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə tanınır.

**Vergiqoyma**

Mənfəət vergisi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir haqqında hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Qrupun cari mənfəət vergisi xərci, hesabat dövrünün sonunda qüvvədə olan və ya mahiyyət etibarilə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun balans dəyərləri ilə onların vergiyə uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq vəsaitlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir haqqında hesabatda əks etdirilir. Təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək maliyyə vəziyyəti haqqında hesabatda xalis şəkildə təqdim edilə bilər:

- Qrupun cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

Azərbaycan Respublikasında Qrupun fəaliyyəti üzrə tətbiq olunan digər vergilər də mövcuddur. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi məcmu gəlir haqqında hesabata daxil edilir.

**Nizamnamə kapitalı**

Adi səhmlər kapital bölümündə təsnifləşdirilir. Adi səhmlərin buraxılması ilə əlaqədar olan birbaşa əlavə xərclər bütün vergi təsirləri istisna olmaqla kapitalın azaldılması kimi uçota alınır. Adi səhmlər üzrə dividendlər kapital bölümündə elan olunduğu dövrdə azalma kimi təqdim edilir.

Hesabat tarixindən sonra elan edilmiş dividendlər "Hesabat tarixindən sonra baş vermis hadisələr" adlı 10 saylı Beynəlxalq Mühasibat Uçotu Standartına ("10 saylı MUBS") müvafiq olaraq maliyyə hesabatlarında açıqlanır.

**Kapital ehtiyatları**

Qrupun kapital ehtiyatları Qrupun əməliyyat fəaliyyətini maliyyələşdirmək məqsədi ilə ilkin olaraq təsisçi tərəfindən kredit şəklində hissə-hissə təqdim edilmiş nağd pul qoyuluşlarından ibarətdir. Buna baxmayaraq, təsisçi bu vəsaitləri Qrupun kapitalına yönəltmiş və onun geri qaytarılması ilə bağlı iddiası yoxdur. Hesabat tarixinə həmin məbləğ nizamnamə kapitalının bir hissəsi kimi qeydə alınmamışdır.

**Gəlirin tanınması**

Gəlir Qrupun adi fəaliyyəti nəticəsində yaranır. Gəlir əməliyyat qiyməti məbləğində tanınır. Əməliyyat qiyməti vəd edilmiş xidmətlər üzrə nəzarətin alıcıya ötürülməsi müqabilində üçüncü tərəflərin adından alınan məbləğlər istisna olmaqla, Qrup tərəfindən əldə ediləcəyi gözlənilən ödənişlərdir.

***Ticarət platformalarından əldə edilən komissiya haqqı***

Qrup müştərilərin qiymətli kağızlar, xarici valyuta mübadiləsi və əmtəə malları daxil olmaqla maliyyə alətlərində əməliyyatları icra etdikləri ticarət platformasına giriş təmin edir. Ticarət platformasından əldə edilən gəlir platforma vasitəsilə icra olunmuş alqı-satqı üzrə müştərilərdən əldə edilmiş komissiyalar və əməliyyat həcminə əsasən ana müəssisə tərəfindən məbləğin müəyyən hissəsinin geri qaytarılmasıdır.

***Spredlərdən əldə edilən komissiya və fərq üzrə müqavilələr üzrə komissiya***

Qrup fərq üzrə müqavilələr ticarəti ilə əlaqədar müştərilərdən alınan spredlər və komissiyalardan gəlir əldə edir. Bu gəlirlər xidmətlər göstərildiyi halda "Müştərilər ilə müqavilələr" adlı 15 saylı MHBS-yə müvafiq olaraq tanınır. Fərq üzrə müqavilələrin ədalətli dəyərində, o cümlədən müştəri mövqeləri və müvafiq qarşılıqlı ticarətdə dəyişikliklərdən yaranan gəlir və zərərlər xalis ticarət gəliri daxilində təqdim olunur və müştərilər ilə müqavilələrdən əldə edilən gəlir hesab edilmir.

***Aktivlərin idarə edilməsindən gəlir***

Qrup portfelin idarə edilməsi xidmətləri məqsədilə müştərilərdən 1-3 il müddətinə idarə olunmaq üçün qiymətli kağızlar və/və ya pul vəsaitləri formasında investisiya portfeli əldə edir. Portfelin idarə edilməsi xidmətlərindən əldə olunan gəlir performans komissiyasından ibarətdir.

Performans komissiyası portfelin idarə edilməsi üçün müştəridən əldə edilən portfelin nəticələrinə görə dəyişkən məbləğdir. Performans komissiyası adətən portfelin bir baza indeksindən və ya eyni qrupun performansından artıq olan nisbəti kimi hesablanır. Performans komissiyasında təbii artım əsasən yeni idarəetməyə verilmiş xalis aktivlər üzrə yeni daxilolmalardan asılıdır. Əsas amillər hesab olunan ümumi bazar şərtlərindən qlobal maliyyə aktivlərinin artması əhəmiyyətli uzunmüddətli iqtisadi faktor kimi çıxış edir.

Gəlir icra öhdəliyi yerinə yetirildiyi zaman, yəni mal və ya xidmətlər üzrə nəzarət müştəriyə ötürüldükdə tanınır. İcra öhdəliyi dövr ərzində və ya müəyyən zaman anında yerinə yetirilə bilər. Dövr ərzində yerinə yetirilmiş icra öhdəliyindən əldə olunan gəlir mal və xidmətlərin müştəriyə ötürülməsi ilə ölçülən icra öhdəliyinin yerinə yetirilmə səviyyəsi ilə tanınır. Müəyyən zaman anında yerinə yetirilən icra öhdəliyindən əldə olunan gəlir vəd edilmiş mal və ya xidmətlər üzrə nəzarət müştəriyə keçdiyi anda tanınır.

Perfomans komissiyası qazanıldığı və müəyyən edildiyi dövrdə tanınır. Performans komissiyası bütün qeyri-müəyyənliklər həll olunana və əvvəlki dövrdə qeydə alınmış məbləğlərin geri qaytarılma ehtimalı olmayana qədər məhdudlaşdırılır. Portfelin perfomansı qənaətbəxş səviyyədə olmadıqda və ya müsbət nəticə göstərə bilmədikdə, gələcək illərin perfomansı komissiya əldə olunana qədər adətən bu kəsirdən yüksək olmalıdır.

***Broker əməliyyatları üzrə komissiya gəlirləri***

Qrup qarşı tərəflər adından qiymətli kağızların alqı-satqısını həyata keçirərkən agent kimi çıxış edərək, qarşı tərəflərə broker xidmətləri göstərir. Broker fəaliyyətindən əldə edilən gəlir əqd məbləğinin faizi kimi hesablanır və müəyyən zaman anında qazanılır. Broker fəaliyyətindən əldə edilən gəlirlərə yalnız göstərilmiş xidmətlər üzrə komissiya daxildir və müəyyən komissiya xərcləri çıxılmaqla göstərilir.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq dövlət təqaüd sistemi təqaüd ayırmalarını hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti ilə bağlı nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əməkhaqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir.

Qrup Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Qrupda hesablanması tələb olunan pensiya müavinətləri və ya ödəniş edilən digər mühüm müavinətlər mövcud deyildir.

**İşçi heyətinə ödənilən müavinətlər**

Əməkhaqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Qrupun işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Buraxılmış borc qiymətli kağızları**

Buraxılmış borc qiymətli kağızları amortizasiya olunmuş maya dəyərində əks etdirilir. Əgər Qrup özünün buraxılmış borc qiymətli kağızlarını alırsa, onlar maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş kompensasiya arasındakı fərq borcun vaxtından əvvəl silinməsindən yaranan gəlirlərə daxil edilir.

**İcarə öhdəlikləri**

İcarənin başlanğıc tarixində Qrup, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Qrup tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Qrupun ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Qrup icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin balans dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

## 4. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Qrup növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

**Fasiləsizlik prinsipi**

Fasiləsizlik prinsipinin müvafiqliyini qiymətləndirərkən, rəhbərlik Qrupun 31 dekabr 2025-ci il tarixinə əməliyyat zərərlərini, pul vəsaitlərinin mənfi axınını və xalis cari öhdəlik mövqeyini nəzərə almışdır. Rəhbərlik, həmçinin səhmdarın kapital ianələri vasitəsilə və ya zərərləri qarşılamaqla maliyyə dəstəyi göstərmək niyyətini və qabiliyyətini qiymətləndirmişdir. Bu qiymətləndirmə əsasında, rəhbərlik Qrupun yaxın gələcəkdə əməliyyatlarını davam etdirəcəyi qərarına gəlmişdir. Buna baxmayaraq, qeyd olunan hallar Qrupun fəaliyyətini fasiləsizlik prinsipi əsasında davam etdirmək qabiliyyətinə əhəmiyyətli şübhə yarada biləcək mühüm qeyri-müəyyənlik hesab olunur.

**Biznes modelinin qiymətləndirilməsi**

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Qrup rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial itkilərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün saxlanılma" biznes modelinin parametrlərinə uyğun gəlir. Kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlanılma" biznes modelinin çərçivəsində dəyərləndirilir. Qrup satışların dəyərini portfelin orta istifadə müddəti ərzində biznes modelinin qiymətləndirilməsinə əsaslanan portfelin dəyəri ilə müqayisə etməklə satış əməliyyatlarının əhəmiyyətini qiymətləndirir.

Əlavə olaraq, yalnız stressli vəziyyətlərdə və ya Qrupun nəzarətindən kənar olan, təkrarlanmayan və Qrup tərəfindən gözlənilməyən ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

Biznes modelinin müəyyən olunması zamanı Qrup tərəfindən nəzərdən keçirilən faktorlara Qrupun strategiyası, portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul vəsaitlərinin necə toplanıldığı barədə keçmiş təcrübə, aktiv fəaliyyətinin necə qiymətləndirildiyi və rəhbər şəxslərin aldığı müavinətlər daxildir.

"Toplamaq üçün saxlanılma və satış" biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

**Fərq müqavilələrin (CFD) qiymətləndirilməsi**

Qrup fəaliyyətinin adi gedişatı zamanı müştərilər ilə fərq müqavilələri bağlayır və bu müqavilələri ana müəssisə ilə eyni şərtlərlə qarşılıqlı əməliyyatlarla uyğunlaşdırır. Fərq müqavilələri 9 saylı MHBS və 13 saylı MHBS-yə müvafiq olaraq mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ölçülür.

Ədalətli dəyərin müəyyən edilməsi, xüsusilə müşahidə edilə bilən bazar məlumatları məhdud olduqda xüsusi mülahizə tələb edir. Fərq müqavilələri və əlaqədar qarşılıqlı törəmə alətlərin qiymətləndirilməsi 13 saylı MHBS-yə müvafiq olaraq müşahidə edilə bilən bazar məlumatları, o cümlədən əsas alətlərin qiymətlərinə əsaslandığından, fərq müqavilələri və əlaqədar qarşılıqlı törəmə alətlər ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsi daxilində təsnifləşdirilir.

Rəhbərliyin bu modellər üzrə fərziyyələri fərq müqavilələri ilə əlaqədar aktiv və öhdəliklərin hesabatda əks etdirilən ədalətli dəyərinə əhəmiyyətli şəkildə təsir göstərə bilər.

**MZVƏD-də təsnifləşdirilən borc və pay qiymətli kağızlarının ədalətli dəyərinin ölçülməsi**

Qalıq kateqoriyası elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur. Müqavilə üzrə pul vəsaitlərinin toplanması bu biznes modeli üçün çox vaxt təsadüfi olur.

MZVƏD-də təsnifləşdirilən borc və pay qiymətli kağızlarının ədalətli dəyərinin ölçülməsi rəhbərlik tərəfindən əhəmiyyətli mühakimə və qiymətləndirmə tələb edir. 13 saylı MHBS-yə əsasən, ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında müntəzəm əməliyyatlar əsasında aktivin satılması üçün əldə ediləcək qiymət olaraq təyin edilir.

Borc qiymətli kağızları üzrə rəhbərlik mövcud olduqda fəal bazarlarda təyin olunmuş bazar qiymətləri əsasında ədalətli dəyəri qiymətləndirir. Bu cür qiymətlər mövcud olmadıqda, ədalətli dəyər müşahidə oluna bilən bazar qiymətləri, məsələn gəlirlilik səviyyəsi, kredit yayılmaları və faiz dərəcələrini özündə birləşdirən qiymətləndirmə texnikalarından istifadə etməklə müəyyən olunur. Müşahidə edilə bilən məlumatların asanlıqla əldə edilmədiyi bəzi hallarda, əhəmiyyətli mühakimə tələb edən müşahidə edilə bilməyən məlumatlardan istifadə edilir. Bu məlumatlara emitentin kredit riski, likvidlik riski və borc qiymətli kağızının dəyərinə təsir edən digər faktorlar ilə bağlı fərziyyələr daxildir.

Pay qiymətli kağızları üzrə ədalətli dəyər əsasən fəal bazarlarda kotirovka olunmuş qiymətlərə əsasən təyin olunur. Bazar qiymətləri mövcud olmadıqda, ədalətli dəyər pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış təhlili və ya müqayisəli Qrup təhlilindən istifadə etməklə qiymətləndirilir. Bu metodlara müvafiq model və məlumatların məsələn, proqnozlaşdırılmış qazanc, artım dərəcələri və diskont dərəcələrinin seçilməsinə əhəmiyyətli mühakimənin yürüdülməsi daxildir.

Rəhbərlik davamlı olaraq qiymətləndirmə üsulları və məlumatların müvafiqliyini nəzərdən keçirərək onların cari bazar şərtləri və digər müvafiq faktorlara uyğunluğunu təmin edir. Bazar şərtlərində və ya müşahidə oluna bilən giriş məlumatlarının əlçatanlığında dəyişikliklər mənfəət və ya zərərdə tanınan ədalətli dəyərin ölçmələrində dəyişikliklərə səbəb ola bilər.

Müşahidə oluna bilməyən məlumatlar istifadə olunduğu hallarda, rəhbərlik bazar iştirakçılarının aktivin qiymətləndirilməsində istifadə edəcəkləri ehtimalların işlənib hazırlanmasında mühüm mühakimə yürüdür. Buraya tarixi məlumat, bazar tendensiyaları və digər müvafiq faktorlar nəzərə alınmaqla, bütün mövcud məlumatlar daxildir.

Ədalətli dəyərin müəyyən olunması qeyri-müəyyəndir və əhəmiyyətli peşəkar mülahizə tələb edir. Rəhbərlik hesab edir ki, konsolidə edilmiş maliyyə hesabatlarında təqdim edildiyi kimi ədalətli dəyər qiymətləndirmələri əsaslıdır və 13 saylı MHBS-yə uyğundur. 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Qrup MZVƏD-də təsnifləşdirilən pay qiymətli kağızlarında ədalətli dəyər üzrə 973 AZN məbləğində gəlir tanımışdır (31 dekabr 2024-cü il: sıfır). 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Qrup MZVƏD-də təsnifləşdirilən borc qiymətli kağızlarında ədalətli dəyər üzrə gəlir tanımamışdır (2024: 729,430 AZN məbləğində ədalətli dəyər üzrə gəlir).

**İcarə öhdəliklərinin qiymətləndirilməsi və aktivlərdən istifadə hüququ**

İcarə müddətinin müəyyən edilməsi zamanı rəhbərlik, icarə müddətinin uzadılması seçimindən istifadə etmək və ya vaxtından əvvəl xitam seçimindən istifadə etməmək üçün iqtisadi stimullar yaradan bütün fakt və amilləri nəzərə alır. İcarə müddətinin uzadılması seçimi (və ya xitam seçimindən sonrakı dövrlər) yalnız icarə müddətinin uzadılması (və ya xitam verilməməsi) əsaslı şəkildə ehtimal olunan hallarda, icarə müddətinə daxil edilir.

**İcarələr – Artan borclanma dərəcəsinin təxmin edilməsi**

Qrup icarədə nəzərdə tutulan faiz dərəcəsini asanlıqla müəyyən edə bilmir, buna görə də icarə öhdəliklərini ölçmək üçün artan borclanma dərəcəsini (ABD) istifadə edir. ABD Qrupun oxşar şərt və oxşar girovla oxşar iqtisadi mühitdə istifadə hüququ olan aktivə oxşar dəyərli aktivin əldə edilməsi üçün tələb olunan vəsaitlərin borca alınması üçün ödəməli olduğu faiz dərəcəsidir. Beləliklə, ABD Qrupun nəyi "ödəməli olduğunu" əks etdirir, bu isə heç bir müşahidə edilən dərəcələr olmadıqda (məs. Qrup maliyyə əməliyyatları aparmadıqda) və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda (məs. icarələr Qrupun funksional valyutasında olmadıqda) qiymətləndirilmənin aparılmasını tələb edir. Qrup ABD-ni mümkün olduqda müşahidə edilən giriş məlumatlarından (bazardakı faiz dərəcələri kimi) istifadə etməklə qiymətləndirir və Qrup müəssisənin xüsusiyyətlərini nəzərə almaqla (məs. Qrupun kredit reytinqi) müəyyən qiymətləndirmələr aparmalıdır.

**İcarə müddətinin müəyyən edilməsi**

Qrup, üçüncü tərəflərlə bağlanmış müqavilələr əsasında ofis sahəsini icarəyə götürür. Qrup, müqaviləyə xitam verildiyi halda tətbiq oluna biləcək cərimələri, o cümlədən icarəyə götürülmüş sahədə aparılmış əsaslı təmir, köçürülmə xərcləri və ya həmin sahənin Qrupun əməliyyatları üçün əhəmiyyətini nəzərə alaraq, bu icarə müqavilələri üzrə ləğv edilə bilməyən icarə müddətini müəyyən edir.

Ofislərin icarəyə götürülməsi zamanı aşağıdakı faktorlar ən münasib hesab olunur:

- İcarə müqaviləsinə xitam veriləcəyi halda (və ya vaxtının uzadılmaması) əhəmiyyətli cərimələr olduqda, Qrup icarə müddətinin uzadılmasına (və ya xitam verilməməsinə) əsaslı şəkildə əmin olur;
- İcarə obyektinin təkmilləşdirilməsi üzrə əhəmiyyətli qalıq dəyərinin mövcud olacağı ehtimalı varsa, Qrup icarə müddətinin uzadılmasına (və ya xitam verilməməsinə) əsaslı şəkildə əmin olur.

Əks halda, Qrup digər amilləri, o cümlədən əvvəlki icarə müddətlərini, icarəyə götürülmüş aktivin əvəzlənməsi ilə bağlı xərcləri və biznesin dayandırılması risklərini nəzərə alır. Ofis icarələrindəki əksər uzadılma seçimləri lizinq öhdəliklərinə daxil edilməmişdir, çünki Qrup bu aktivləri əhəmiyyətli xərc və ya əməliyyat pozuntusu olmadan əvəz edə bilər.

16 saylı MHBS-nin tətbiqi istifadə hüququ olan aktivlər və icarə öhdəliklərinə dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Qrup yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

İcarə müddətinin sonuna qədər Qrupun mülkiyyətə sahib olacağına dair əsaslı əminlik olmadığı müddətdə, icarə obyektlərinin təkmilləşdirilməsi və icarəyə götürülmüş aktivlər, icarə müddəti və faydalı istismar müddəti arasında daha qısa olanı əsasında amortizasiya olunur.

### Cari vergilər

Vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişikliklərə məruz qalır. Bundan başqa Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyət rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyətin işçiləri əhəmiyyətli dərəcədə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər.

## 5. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir:

(i) 1-ci Səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş);

(ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr; və

(iii) 3-cü Səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

### Təkrar ədalətli dəyər qiymətləndirmələri

Təkrar ədalətli dəyər qiymətləndirmələrinin aid edildiyi ədalətli dəyər iyerarxiyalarının səviyyəsi aşağıda göstərilir:

| | 31 dekabr 2025-ci il | | | |
|---|---|---|---|---|
| | **1-ci Səviyyə** | **2-ci Səviyyə** | **3-cü Səviyyə** | **Cəmi** |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| - Debitor borcları və digər alınacaq vəsaitlər | - | 470,257 | - | 470,257 |
| - Pay qiymətli kağızları üzrə investisiya | - | 15,428 | - | 15,428 |
| **ƏDALƏTLİ DƏYƏRLƏ ÖLÇÜLƏN CƏMİ AKTİVLƏR** | **-** | **485,685** | **-** | **485,685** |

| | 31 dekabr 2025-ci il | | | |
|---|---|---|---|---|
| | 1-ci Səviyyə | 2-ci Səviyyə | 3-cü Səviyyə | Cəmi |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| - Müştərilərə ödəniləcək vəsaitlər | - | 648,095 | - | 648,095 |
| **ƏDALƏTLİ DƏYƏRLƏ ÖLÇÜLƏN CƏMİ ÖHDƏLİKLƏR** | **-** | **648,095** | **-** | **648,095** |

| | 31 dekabr 2024-cü il | | | |
|---|---|---|---|---|
| | 1-ci Səviyyə | 2-ci Səviyyə | 3-cü Səviyyə | Cəmi |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| - Borc qiymətli kağızları üzrə investisiyalar | - | 22,000 | - | 22,000 |
| - Pay qiymətli kağızları üzrə investisiyalar | - | 14,455 | - | 14,455 |
| **ƏDALƏTLİ DƏYƏRLƏ ÖLÇÜLƏN CƏMİ AKTİVLƏR** | **-** | **36,455** | **-** | **36,455** |

Aşağıdakı cədvəl ədalətli dəyərdə ölçülməyən maliyyə aktivləri və öhdəlikləri ilə əlaqədar ədalətli dəyər haqqında məlumat təqdim edir:

| | 31 dekabr 2025-ci il | | | |
|---|---|---|---|---|
| | Səviyyə | Balans dəyəri | Ədalətli dəyər | Tanınmamış mənfəət/ (zərər) |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 3-cü Səviyyə | 141,921 | 141,921 | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1-ci Səviyyə | 902,034 | 902,034 | - |
| Müştərilərə ödəniləcək vəsaitlər | 3-cü Səviyyə | 31,955 | 31,955 | - |
| Buraxılmış borc qiymətli kağızları | 3-cü Səviyyə | 962,092 | 967,111 | (5,019) |

| | 31 dekabr 2024-cü il | | | |
|---|---|---|---|---|
| | Səviyyə | Balans dəyəri | Ədalətli dəyər | Tanınmamış mənfəət/ (zərər) |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 3-cü Səviyyə | 2,543,172 | 2,543,172 | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1-ci Səviyyə | 3,603,119 | 3,603,119 | - |
| Müştərilərə ödəniləcək vəsaitlər | 3-cü Səviyyə | 125,115 | 125,115 | - |
| Buraxılmış borc qiymətli kağızları | 3-cü Səviyyə | 905,754 | 874,614 | 31,140 |

## 6. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

### 6.1 Cari il üçün qüvvədə olan yeni standartlar və düzəlişlər

Qrup MUBSŞ tərəfindən qəbul edilmiş, Qrupun fəaliyyəti üçün münasib olan və 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə bütün hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

2023-cü ilin avqust ayında MUBSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı MUBS-a** düzəliş dərc etmişdir. Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir. Düzəlişlər, erkən tətbiqetmə seçimi mövcud olmaqla, 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartlar Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

**6.2 Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar və şərhlər**

Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Qrup tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Qrupun bu yeni və düzəliş edilmiş standartları və şərhləri, əgər tətbiq olunarsa, qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

30 may 2024-cü il tarixində MUBSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS "Maliyyə Alətləri"** və **7 saylı MHBS "Maliyyə Alətləri: Məlumatların Açıqlanması"na** düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.
- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMGVƏD vasitəsilə ədalətli dəyərdə ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

MUBSŞ 2024-cü ilin may ayında təbiət amillərindən asılı elektrik enerjisinə istinad edən müqavilələr üzrə mühasibat uçotu və açıqlama tələblərini əhatə edən **9 saylı MHBS** və **7 saylı MHBS-yə** düzəlişlər dərc etmişdir. Düzəlişlər bu tipli müqavilələrin müəssisənin öhdəlikləri, pul vəsaitlərinin hərəkəti və likvidlik riskinə təsirlərinin şəffaflığını artırır. Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur və erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində MUBSŞ **"MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild"**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün hecinq uçotu ilə bağlı izahlar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;

- 9 saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
- 10 saylı MHBS: "De-fakto agent"inin müəyyən olunması üzrə açıqlamalar;
- 7 saylı BAS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

9 aprel 2024-cü il tarixində MUBSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq **"Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında MUBSŞ tərəfindən **19 saylı "İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Mühasibat Uçotu Standartlarına uyğun olan konsolidə edilmiş maliyyə hesabatlarını hazırlamalıdır.

Yeni standart 1 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

2025-ci ilin avqust ayında MUBSŞ **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" (Hiperinflyasiyalı Təqdimat Valyutasına Çevrilmə) adlı 21 saylı MUBS-a** düzəliş dərc etmişdir. Düzəlişə əsasən müəssisə hiperinflyasiyalı mühitdə olduqda təqdimat valyutası seçimi və valyuta mübadiləsi mümkün olmayan əməliyyatlarda xarici valyutanın dəyərləndirilməsi qaydası müəyyən olunur. Müəssisə qiymətləndirmə tarixində başqa bir valyutaya mübadilə olunmayan xarici valyutada əməliyyatı və ya fəaliyyəti olduğu halda təsirə məruz qalır. Düzəlişlər 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 "Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər"** və **MHBS S2 "İqlim ilə əlaqədar açıqlamalar"** adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir, bu məlumatlar investorlar tərəfindən müəssisənin dəyərləndirilməsi zamanı əhəmiyyətli hesab olunur.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir. BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir. Hazırkı hesabat tarixində bu standartlar Qrupun fəaliyyət göstərdiyi yurisdiksiya tərəfindən qəbul edilməmişdir.

**"Konsolidə edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS** və **"İnvestor və onun Assosiasiya edilmiş və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı MUBS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişlər investor, onun assosiasiya edilmiş və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin assosiasiya edilmiş və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya edilmiş və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi MUBSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların və şərhlərin Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 7. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

**Əsas idarəedici heyətə ödənişlər**

Əsas idarəedici heyət idarəedici partnyor və direktordan ibarətdir. Əsas idarəedici heyətə ödənişlər aşağıdakı cədvəldə göstərilir:

| | 2025-ci il | | 2024-cü il | |
|---|---|---|---|---|
| | **Xərclər** | **Hesablanmış öhdəlik** | **Xərclər** | **Hesablanmış öhdəlik** |
| *Qısamüddətli ödənişlər:* | | | | |
| - Əməkhaqqı | 412,879 | 3,381 | 295,508 | 15,242 |
| - Qısamüddətli mükafatlar | 34,394 | - | 29,315 | - |
| **Əsas idarəedici heyətə cəmi ödənişlər** | **447,273** | **3,381** | **324,823** | **15,242** |

İl sonuna qalıqlar və 31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər üzrə əlaqəli tərəflərlə olan gəlir və xərc maddələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Debitor borcları və digər alınacaq vəsaitlər | 331,373 | - |
| Xalis haqq və komissiya gəliri | 154,551 | 1,750 |

Qrup ticarət platformasının istifadəsi ilə bağlı ana müəssisədən lisenziya almışdır. İşlərin normal gedişatı zamanı bu işlərə ilkin quraşdırma və davamlı aylıq texniki dəstək haqları daxildir. Buna baxmayaraq, hesabat tarixinə tərəflər arasında bu xidmətlər üzrə qiymətlər müəyyən olunmamış və onların ədalətli dəyərinin qiymətləndirilməsi praktiki cəhətdən mümkün olmamışdır. Nəticə etibarilə, bu xidmətlər ilə əlaqədar bu maliyyə hesabatlarında heç bir məbləğ tanınmamışdır.

## 8. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqların balans dəyərindəki hərəkət aşağıdakı kimidir:

| | İcarə aktivlərinin təkmilləşdirilməsi | Kompüter və ofis avadanlıqları | Nəqliyyat vasitələri | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə balans dəyəri** | **-** | **12,321** | **-** | **9,369** | **21,690** |
| Əlavələr | 486,841 | 26,897 | - | 75,668 | 589,406 |
| Köhnəlmə xərci | - | (2,968) | - | (2,116) | (5,084) |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **486,841** | **36,250** | **-** | **82,921** | **606,012** |
| 31 dekabr 2024-cü il tarixinə dəyər | 486,841 | 73,114 | - | 118,838 | 678,793 |
| Yığılmış köhnəlmə | - | (36,864) | - | (35,917) | (72,781) |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **486,841** | **36,250** | **-** | **82,921** | **606,012** |
| Əlavələr | 522,306 | 396,857 | 433,913 | 59,808 | 1,412,884 |
| Silinmələr | - | (5,095) | - | (13,164) | (18,259) |
| Köhnəlmə xərci | (59,943) | (83,713) | (37,063) | (24,848) | (205,567) |
| Silinmələr üzrə ləğv edilmiş | - | 3,219 | - | 8,221 | 11,440 |
| **31 dekabr 2025-ci il tarixinə balans dəyəri** | **949,204** | **347,518** | **396,850** | **112,938** | **1,806,510** |
| 31 dekabr 2025-ci il tarixinə dəyər | 1,009,147 | 464,876 | 433,913 | 165,482 | 2,073,418 |
| Yığılmış köhnəlmə | (59,943) | (117,358) | (37,063) | (52,544) | (266,908) |
| **31 dekabr 2025-ci il tarixinə balans dəyəri** | **949,204** | **347,518** | **396,850** | **112,938** | **1,806,510** |

## 9. İSTİFADƏ HÜQUQU OLAN AKTİVLƏR VƏ İCARƏ ÖHDƏLİKLƏRİ

Qrup ofis sahəsini icarəyə götürür. İcarə müqavilələri adətən müəyyən dövrlər üçün hazırlanır, lakin bəzi hallarda onları uzatmaq seçimləri də olur.

| | **İstifadə hüququ olan aktivlər** |
|---|---|
| **1 yanvar 2024-cü il tarixinə balans dəyəri** | - |
| Əlavələr | 1,807,399 |
| Başa çatmış il üzrə amortizasiya xərci | (72,296) |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **1,735,103** |
| Əlavələr | - |
| Başa çatmış il üzrə amortizasiya xərci | (173,510) |
| **31 dekabr 2025-ci il tarixinə balans dəyəri** | **1,561,593** |

Qrup icarə öhdəliklərini aşağıdakı kimi tanımışdır:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Qısamüddətli icarə öhdəlikləri | 278,420 | 278,420 |
| Uzunmüddətli icarə öhdəlikləri | 1,445,623 | 1,558,174 |
| **Cəmi icarə öhdəlikləri** | **1,724,043** | **1,836,594** |

İcarə müqavilələri icarəyə verən tərəfin icarəyə götürülən aktivlər üzərində saxladığı təminat hüquqları xaricində əlavə heç bir öhdəliklər qoymur. İcarə müqaviləsinə əsasən, əvvəlcədən ödənilmiş 24,510 AZN məbləğində geri qaytarıla bilən təminat depoziti digər uzunmüddətli aktivlər kimi qeyd edilmişdir. İcarəyə götürülən aktivlər girov olaraq istifadə oluna bilməz.

| | **2025-ci il** |
|---|---|
| **1 yanvar** | **1,836,594** |
| **Nağd dəyişikliklər** | |
| Ödənilmiş əsas hissə | (112,551) |
| Ödənilmiş faiz | (182,746) |
| **Nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 182,746 |
| **31 dekabr** | **1,724,043** |

| | 2024-cü il |
|---|---|
| **1 yanvar** | - |
| **Nağd dəyişikliklər** | |
| Ödənilmiş əsas hissə | (29,623) |
| Ödənilmiş faiz | (18,220) |
| **Nağdsız dəyişikliklər** | |
| Əlavələr | 1,807,399 |
| Faiz xərci | 77,038 |
| **31 dekabr** | **1,836,594** |

Qrup tərəfindən əmlak və avadanlıqlar üzrə icarə müqavilələrinə uzadılma və ləğvetmə seçimləri daxil edilir. Bu seçimlər Qrupun fəaliyyətində istifadə olunan aktivlərin idarə olunmasında əməliyyat çevikliyini artırmaq məqsədi ilə tətbiq olunur.

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Qısamüddətli və aşağı dəyərli icarələr ilə bağlı xərclər | 27,140 | 89,814 |

## 10. QEYRİ-MADDİ AKTİVLƏR

| | Daxili imkanlar hesabına yaradılmış proqram təminatı | Alınmış lisenziyalar | Digər | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə balans dəyəri** | **108,777** | **2,789** | **61,918** | **173,484** |
| Əlavələr | - | 13,600 | - | 13,600 |
| Silinmələr | (161,883) | (2,990) | - | (164,873) |
| Amortizasiya xərci | (10,621) | (919) | (192) | (11,732) |
| Silinmələr üzrə ləğv edilmiş | 63,727 | 385 | - | 64,112 |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **-** | **12,865** | **61,726** | **74,591** |
| 31 dekabr 2024-cü il tarixinə dəyər | - | 17,925 | 64,175 | 82,100 |
| Yığılmış amortizasiya | - | (5,060) | (2,449) | (7,509) |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **-** | **12,865** | **61,726** | **74,591** |
| Amortizasiya xərci | - | (3,515) | (173) | (3,688) |
| **31 dekabr 2025-ci il tarixinə balans dəyəri** | **-** | **9,350** | **61,553** | **70,903** |
| 31 dekabr 2025-ci il tarixinə dəyər | - | 17,925 | 64,175 | 82,100 |
| Yığılmış amortizasiya | - | (10,163) | (1,034) | (11,197) |
| **31 dekabr 2025-ci il tarixinə balans dəyəri** | **-** | **7,762** | **63,141** | **70,903** |

## 11. BORC QİYMƏTLİ KAĞIZLARI ÜZRƏ İNVESTİSİYALAR

31 dekabr 2025-ci il və 2024-cü il tarixinə borc qiymətli kağızları üzrə investisiyaların kateqoriyalar üzrə təhlili aşağıdakı cədvəldə göstərilir. Bütün bu investisiyalar məcburi qaydada MZVƏD ilə ölçülmüş borc qiymətli kağızlarından ibarətdir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə ticarət üçün investisiyalar aşağıda göstərilir:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Korporativ istiqrazlar | - | 22,000 |
| **Cəmi borc qiymətli kağızları üzrə investisiyalar** | **-** | **22,000** |

Qrup tərəfindən məcburi qaydada MZVƏD kateqoriyasında qiymətləndirilən borc qiymətli kağızları ticarət üçün saxlanılan qiymətli kağızları və "qalıq" biznes modelindəki qiymətli kağızları əks etdirir. MZVƏD kateqoriyasında ölçülən borc qiymətli kağızları ədalətli dəyərlə tanınır ki, bu da, həmçinin kredit riski ilə bağlı müvafiq silinmələri əks etdirir və Qrupun kredit riski barədə ən dəqiq məlumatı təqdim edir.

MZVƏD kateqoriyasında ölçülən maliyyə aktivləri ədalətli dəyərlə tanınır ki, bu da, həmçinin kredit riski ilə bağlı müvafiq silinmələri əks etdirir. Maliyyə aktivləri bazarda müşahidə oluna bilən məlumatlara əsasən ədalətli dəyərlə qeydə alındığına görə Qrup dəyərsizləşmə əlamətlərini təhlil etmir. 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə MZVƏD kateqoriyasında ölçülən borc qiymətli kağızlarının kredit keyfiyyətinə görə təhlili aşağıdakı kimi olmuşdur:

| | **Korporativ istiqrazlar** | **Cəmi 31 dekabr 2025-ci il** | **Korporativ istiqrazlar** | **Cəmi 31 dekabr 2024-cü il** |
|---|---|---|---|---|
| *Vaxtı keçməmiş və dəyərsizləşməmiş (ədalətli dəyərlə)* | | | | |
| - A- reytinqindən aşağı | - | - | 22,000 | 22,000 |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **-** | **-** | **22,000** | **22,000** |

## 12. PAY QİYMƏTLİ KAĞIZLARI ÜZRƏ İNVESTİSİYALAR

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| MZVƏD kateqoriyasında ölçülən pay qiymətli kağızları | 15,428 | 14,455 |
| **Cəmi pay qiymətli kağızları üzrə investisiyalar** | **15,428** | **14,455** |

MZVƏD kateqoriyasında ölçülən bütün pay qiymətli kağızları korporativ səhmlərdən, ticarət üçün saxlanılan qiymətli kağızlardan, nizamnamə kapitalında iştirak payından və ilkin tanınma zamanı DMGVƏD kateqoriyasına aid edilməyən digər pay qiymətli kağızlarından ibarətdir.

Pay qiymətli kağızlarına investisiyaların qiymətləndirmə kateqoriyaları haqqında məlumat 5 saylı Qeyddə açıqlanır. Valyuta və digər kredit riskləri haqqında məlumat 22 saylı Qeyddə təqdim edilir.

## 13. DEBİTOR BORCLARI VƏ DİGƏR ALINACAQ VƏSAİTLƏR

Debitor borcları və digər alınacaq vəsaitlərin siyahısı aşağıdakı kimidir:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Vasitəçilərdən alınacaq vəsaitlər | 277,599 | - |
| Əlaqəli tərəflərdən alınacaq vəsaitlər | 192,658 | - |
| Broker əməliyyatları üzrə debitor borcları | 164,642 | 30,757 |
| Əks repo müqavilələri üzrə alınacaq vəsaitlər | - | 2,511,385 |
| Portfel idarəetməsi üzrə debitor borcları | - | 1,030 |
| Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat çıxılmaqla | (22,721) | - |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər** | **612,178** | **2,543,172** |

Qrup ehtimal olunan kredit zərərlərinin ölçülməsi üçün 9 saylı MHBS-də nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir və bu yanaşma debitor borcları və digər alınacaq vəsaitlər çərçivəsində maliyyə aktivləri üçün ömürlük ehtimal olunan zərər ehtiyatından istifadə edir.

Aşağıdakı cədvəl ilin əvvəlinə və sonuna sadələşdirilmiş EOKZ modeli əsasında debitor borcları və digər alınacaq vəsaitlər üzrə kredit zərəri ehtiyatında dəyişiklikləri əks etdirir:

| | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| **1 yanvar tarixinə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat** | **-** | **60,354** |
| Ehtimal olunan kredit zərərləri üzrə tutulma | 22,721 | 85,000 |
| Maliyyə aktivlərinin silinməsi | - | (145,354) |
| **31 dekabr tarixinə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat** | **22,721** | **-** |

25 dekabr 2024-cü il tarixində Qrup maliyyə təşkilatı ilə ödəmə müddəti 7 yanvar 2025-ci il tarixində başa çatan 8% faiz dərəcəsi ilə əks repo müqaviləsi bağlamışdır. Əks repo müqaviləsi üzrə alınacaq vəsaitlər 2,511,385 AZN təşkil etmişdir. Əməliyyat 2025-ci ildə başa çatmışdır.

## 14. BANKDA VƏ KASSADA OLAN NAĞD PUL VƏSAİTLƏRİ

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Bankda olan nağd pul vəsaitləri | 902,034 | 3,593,625 |
| Kassada olan nağd pul vəsaitləri | - | 9,494 |
| Cəmi bankda və kassada olan nağd pul vəsaitləri | 902,034 | 3,603,119 |
| Çıxılsın: müştərilərə veriləcək vəsaitlər (müştərilərin pul vəsaitləri) | (209,793) | (125,115) |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **692,241** | **3,478,004** |

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| AZN ilə bank qalıqları | 635,501 | 585,909 |
| ABŞ dolları ilə bank qalıqları | 266,533 | 3,017,210 |
| **Cəmi bankda və kassada olan nağd pul vəsaitləri** | **902,034** | **3,603,119** |

"Fitch" reytinq sisteminə əsaslanan bank qalıqlarının kredit keyfiyyəti aşağıdakı kimi ümumiləşdirilə bilər:

| | 31 dekabr 2025-ci il Tələb edilənədək bank qalıqları | 31 dekabr 2024-cü il Tələb edilənədək bank qalıqları |
|---|---|---|
| - Yüksək dərəcə | 1,491 | 1,491 |
| - Qənaətbəxş | 900,543 | 3,591,738 |
| - Reytinqsiz | - | 396 |
| **Cəmi bankda olan pul vəsaitləri** | **902,034** | **3,593,625** |

31 dekabr 2025-ci il tarixinə müştəri qalıqlarının 209,793 AZN məbləği fiziki şəxslərdən ibarət olmuşdur (2024-cü il: 125,115 AZN məbləğində qalıqlar həm korporativ, həm də fiziki şəxslərdən ibarət olmuşdur və fiziki şəxslərin payı 74% təşkil etmişdir).

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Qrup müştəri qarşısında "Freedom Finance" hesablarında olan və ticarət əməliyyatlarından yaranan 752,883 AZN məbləğində öhdəlik götürmüş və platformanın istifadəsini dayandırmışdır. Müştərilərə ödəniləcək vəsaitlər tam olaraq Qrup tərəfindən təmin edilmişdir.

## 15. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklərin qalıqları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| İşçi heyəti ilə bağlı hesablanmış xərclər | 59,091 | 32,744 |
| DSMF-ə ödəniləcək vəsaitlər | 38,830 | 1,645 |
| Digər ödəniləcək vəsaitlər | 68,911 | 44,968 |
| **Cəmi digər öhdəliklər** | **166,832** | **79,357** |

## 16. BURAXILMIŞ BORC QİYMƏTLİ KAĞIZLARI

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Qeydiyyatdan keçmiş istiqrazlar | 962,092 | 905,754 |
| **Cəmi buraxılmış borc qiymətli kağızları** | **962,092** | **905,754** |

2 iyul 2021-ci il və 21 dekabr 2021-ci il tarixlərində Qrup nominal dəyəri 1,000 manat olan və ümumi dəyəri 2,000,000 AZN təşkil edən 2,000 diskontlaşdırılmış təminatsız istiqraz buraxmışdır. Bu istiqrazlar müvafiq olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankında AZ2001019713 və AZ2002019712 dövlət qeydiyyat nömrələri ilə qeydiyyata alınmışdır. İstiqrazların müddəti müvafiq olaraq 60 və 36 ay olmuşdur.

25 iyul 2023-cü il tarixində Qrup nominal dəyəri 1,000 ABŞ dolları olan və ümumi dəyəri 1,000,000 ABŞ dolları təşkil edən 1,000 diskontlaşdırılmış təminatsız istiqraz buraxmışdır. Bu istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankında AZ2004019710 dövlət qeydiyyat nömrəsi ilə qeydiyyata alınmışdır. İstiqrazların müddəti 12 ay təşkil etmiş və əməliyyat qiyməti 947,444 ABŞ dolları olmuşdur.

2024-cü il ərzində Qrup AZ2002019712 və AZ2004019710 qeydiyyat nömrəli buraxılmış istiqrazları müddətindən əvvəl geri qaytarmışdır. Qrup həm əsas borcu, həm də müddətindən əvvəl geri alınma tarixinədək hesablanmış faizləri tam şəkildə ödəmişdir.

Buraxılmış borc qiymətli kağızlarının qalıq dəyəri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Buraxılmış istiqrazlar üzrə əsas məbləğ | 719,694 | 719,694 |
| Hesablanmış faiz xərci | 242,398 | 186,060 |
| **Cəmi buraxılmış borc qiymətli kağızları** | **962,092** | **905,754** |

Buraxılmış borc qiymətli kağızları üzrə hərəkət aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| **İlin əvvəlinə** | **905,754** | **3,419,827** |
| *Pul vəsaitlərinin hərəkəti:* | | |
| - Əsas məbləğin ödənilməsi | - | (2,392,884) |
| - Maliyyə xərcinin ödənilməsi | - | (213,426) |
| *Nağdsız pul vəsaitlərinin hərəkəti:* | | |
| - Faiz xərci | 56,338 | 92,237 |
| **İlin sonuna** | **962,092** | **905,754** |

## 17. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə cəmi təsdiq olunmuş iştirak faizi hər bir səhmin dəyəri 1,000 AZN olmaqla, 4,550 səhmdən ibarət olmuşdur. Bütün iştirak faizləri tam olaraq nağd şəkildə ödənmişdir. 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə sahibkarlıq strukturunun iştirak faizləri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il | | |
|---|---|---|---|
| | **İştirak paylarının sayı** | **%** | **Məbləğ AZN ilə** |
| "CFI Financial Group Holding Limited" | 4,550 | 100% | 4,550,000 |
| **Cəmi nizamnamə kapitalı** | **4,550** | **100%** | **4,550,000** |

| | 31 dekabr 2024-cü il | | |
|---|---|---|---|
| | **İştirak paylarının sayı** | **%** | **Məbləğ AZN ilə** |
| "CFI Financial Group Holding Limited" | 4,095 | 90% | 4,095,000 |
| Cənab İlqar Rüstəmbəyli | 455 | 10% | 455,000 |
| **Cəmi nizamnamə kapitalı** | **4,550** | **100%** | **4,550,000** |

2025-ci il ərzində Qrup heç bir səhm buraxmamışdır (2024-cü il: Qrup hər birinin dəyəri 1000 AZN olmaqla, 3,000 ədəd əlavə səhm buraxmış, ümumilikdə bu səhmdar kapitalında 3,000,000 AZN cəmi artımla nəticələnmişdir).

2025-ci ildə cənab İlqar Rüstəmbəyli hər birinin dəyəri 455,000 AZN olmaqla, Cəmiyyətin səhmdar kapitalının 10%-ni təmsil edən bütün səhmlərini "CFI Financial Group Holding Limited"in mövcud səhmdarına satmışdır.

**Dividendlər**

Dividendlər yalnız hesabat tarixindən əvvəl və ya hesabat tarixində bəyan edildikdə öhdəlik kimi tanınır və hesabat tarixində kapitaldan çıxılır. Hesabat dövründən sonra və konsolidə edilmiş maliyyə hesabatlarının dərc olunması üçün təsdiq edilməsindən əvvəl elan edilmiş dividendlər hesabat tarixindən sonra baş vermis hadisələr qeydində açıqlanır.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə Qrup heç bir dividend elan etməmiş və ödəməmişdir.

## 18. XALİS HAQQ VƏ KOMİSSİYA GƏLİRİ

Haqq və komissiya gəliri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Ticarət platformasından komissiya gəliri | 167,776 | 180,349 |
| Qiymətli kağızlar, veksellər və səhmlər üzrə broker haqları | 10,632 | 219,466 |
| **Cəmi haqq və komissiya gəliri** | **178,408** | **399,815** |
| Broker komissiya xərci | (13,225) | (229,504) |
| **Xalis haqq və komissiya gəliri** | **165,183** | **170,311** |

## 19. ƏMƏLİYYAT XƏRCLƏRİ

İşçi heyəti ilə bağlı xərclər aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İşçilərə ödənilən kompensasiyalar | (1,215,570) | (580,699) |
| Dövlət Sosial Müdafiə Fonduna ödənişlər | (223,497) | (102,102) |
| Digər işçi müavinətləri | (26,875) | (49,599) |
| **Cəmi işçi heyəti ilə bağlı xərclər və əlaqəli məsrəflər** | **(1,465,942)** | **(732,400)** |

Əməliyyat xərcləri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Reklam xərcləri | (1,637,769) | (185) |
| Köhnəlmə və amortizasiya | (382,765) | (89,112) |
| Ofis xərcləri | (166,005) | (17,770) |
| Konsaltinq və peşəkar xidmət haqları | (97,758) | (65,035) |
| Kommunal xərclər | (96,259) | - |
| İşçi heyəti ilə bağlı digər müavinətlər | (48,623) | (20,351) |
| Rabitə xərcləri | (44,506) | (16,782) |
| Bank xərcləri | (40,725) | (41,223) |
| Nəqliyyat xərcləri | (31,725) | (20,840) |
| Ezamiyyə zamanı qonaqlama | (28,848) | - |
| Nümayəndəlik xərcləri | (23,272) | (39,487) |
| İT xərcləri | (21,640) | - |
| Ezamiyyə xərcləri | (21,266) | (44,917) |
| Sığorta xərcləri | (20,304) | (2,886) |
| Əyləncə xərcləri | (19,742) | (1,973) |
| Təlim xərcləri | (4,440) | (3,980) |
| İstismar və təmir xərcləri | (2,148) | (13,523) |
| İcarə xərcləri | (185) | - |
| Silinmələr | - | (89,814) |
| Digər xərclər | (30,162) | (35,877) |
| **Cəmi digər əməliyyat xərcləri** | **(2,719,695)** | **(503,755)** |

## 20. TİCARƏT QİYMƏTLİ KAĞIZLARI ÜZRƏ GƏLİR

Ticarət qiymətli kağızları üzrə gəlir aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Dividend gəliri | 1,539 | 22,036 |
| Pay qiymətli kağızları üzrə investisiyalara aid ədalətli dəyər üzrə gəlir | 973 | - |
| Borc qiymətli kağızları üzrə investisiyalara aid ədalətli dəyər üzrə gəlir | - | 729,430 |
| Faiz gəliri | - | 19,261 |
| Pay qiymətli kağızlarının satışından gəlir | - | 7,149 |
| **Ticarət qiymətli kağızları üzrə cəmi gəlir** | **2,512** | **777,876** |

## 21. MƏNFƏƏT VERGİSİ

Korporativ mənfəət vergisi xərci aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Təxirə salınmış mənfəət vergisi (xərci)/gəliri | (15,077) | 205,370 |
| **Mənfəət vergisi (xərci)/gəliri** | **(15,077)** | **205,370** |

2025-ci il və 2024-cü illər ərzində şirkətlərə tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Effektiv mənfəət vergisi dərəcəsi qanunvericilikdə nəzərdə tutulan mənfəət vergisi dərəcəsindən fərqlənir. Aşağıdakı cədvəldə qanunvericiliklə nəzərdə tutulmuş mənfəət vergisi xərci faktiki xərclərlə üzləşdirilir.

| | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl xərc** | **(4,223,647)** | **(1,176,918)** |
| Qanunla müəyyən edilmiş vergi dərəcəsi | 20% | 20% |
| Qanunla müəyyən edilmiş vergi dərəcəsi ilə hesablanan mənfəət vergisi gəliri | 844,729 | 235,384 |
| Tanınmamış təxirə salınmış mənfəət vergisi aktivi balansında dəyişiklik | (838,399) | (34,550) |
| Çıxılmayan xərclərin vergi təsiri və əvvəlki ilin təxminlərinə yenidən baxılması | (21,407) | 4,536 |
| **Mənfəət vergisi (xərci)/gəliri** | **(15,077)** | **205,370** |

31 dekabr tarixinə təxirə salınmış vergi aktiv və öhdəlikləri və onların müvafiq illərdə hərəkəti aşağıdakı kimi olmuşdur:

| | 2023-cü il | Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatda tanınmış | 2024-cü il | Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatda tanınmış | 2025-ci il |
|---|---|---|---|---|---|
| Növbəti ilə keçirilmiş istifadə olunmamış vergi zərərləri | 71,689 | (53,289) | 18,400 | 808,428 | 826,828 |
| İcarə öhdəlikləri | - | 384,262 | 384,262 | (24,275) | 359,987 |
| Digər aktivlər | 8,549 | 7,601 | 16,150 | (3,263) | 12,887 |
| Borc qiymətli kağızları üzrə investisiya | 118,661 | (118,661) | - | - | - |
| Ticarət hesabında olan pul vəsaitləri | 5,266 | (5,266) | - | - | - |
| Buraxılmış borc qiymətli kağızları | 3,420 | (3,420) | - | - | - |
| Pay qiymətli kağızları üzrə investisiya | (275,002) | 275,002 | - | - | - |
| Debitor borcları və digər alınacaq vəsaitlər | (46,007) | 46,007 | - | 5,494 | 5,494 |
| İstifadə hüququ olan aktivlər | - | (347,021) | (347,021) | 34,702 | (312,319) |
| Əmlak və avadanlıqlar | - | (8,955) | (8,955) | (21,295) | (30,250) |
| Qeyri-maddi aktivlər | (7,330) | 670 | (6,660) | 114 | (6,546) |
| Digər öhdəliklər | (69,539) | 62,990 | (6,549) | 23,417 | 16,868 |
| **Təxirə salınmış mənfəət vergisi (öhdəlikləri)/aktivləri** | **(190,293)** | **239,920** | **49,627** | **823,322** | **872,949** |
| Tanınmamış təxirə salınmış mənfəət vergisi aktivi | - | (34,550) | (34,550) | (838,399) | (872,949) |
| **Xalis təxirə salınmış mənfəət vergisi (öhdəlikləri)/aktivləri** | **(190,293)** | **205,370** | **15,077** | **(15,077)** | **-** |

## 22. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Qrup daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri, əməliyyat riskləri və hüquqi risklərlə bağlı həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən xarici valyuta, faiz dərəcəsi və digər qiymət riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsinin əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Əməliyyat riski.*** Əməliyyat riski qeyri-adekvat və ya uğursuzluqla nəticələnmiş daxili proseslərdən, insan faktoru və sistemlərdən, texnoloji və indormasiya sistemlərinin pozulmasından və yaxud kənar hadisələrin baş verməsindən yaranan zərər riskidir.

***Kredit riski.*** Maliyyə aləti ilə əməliyyatlar üzrə tərəflərdən biri müqavilə öhdəliyini icra edə bilmədikdə və bu, digər tərəfin maliyyə zərəri ilə üzləşməsinə səbəb olduqda, Qrup kredit riskinə məruz qalır. Kredit riski Qrupun kontragentlərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində yaranır ki, bu da maliyyə aktivlərinin və balansdankənar kredit öhdəliklərin yaranmasına səbəb olur. Qrupun məruz qaldığı kredit riskinin maksimal səviyyəsi maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir. Verilmiş maliyyə zəmanətləri, kreditlər, istifadə edilməmiş kredit xətləri və ixrac/idxal akkreditivlərinin təqdim edilməsi ilə bağlı öhdəliklər üzrə maksimal kredit riski öhdəliyin məbləğidir.

***Kredit riskinin təsnifatı sistemi.*** Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə Qrup beynəlxalq reytinq agentlikləri ("Standard & Poor's" - "S&P", "Fitch", "Moody's") tərəfindən müəyyənləşdirilən xarici kredit reytinqi sistemindən istifadə edir. Kənar kredit reytinqləri müəyyən edilmiş defolt ehtimalları intervallarından ibarət vahid daxili şkala üzrə tutuşdurulur. Qrupun kredit riski orta səviyyəyə aid olub, defolt ehtimalı intervalı 3%-10% təşkil edir. Orta səviyyə kredit riski qənaətbəxş hesab edilən orta keyfiyyətli kreditləri əks etdirir.

Bu cür reytinqlər və müvafiq defolt ehtimalları intervalları aşağıdakı maliyyə alətlərinə tətbiq edilir: *pul vəsaitləri və onların ekvivalentləri, ticarət hesabında olan pul vəsaitləri və debitor borcları və digər alınacaq vəsaitlər.*

Kredit riski üzrə xarici reytinqlər müvafiq reytinq agentlikləri tərəfindən dərc edilmiş defolt və bərpa statistikası əsasında DE və DZYZ kimi kredit riski parametrlərini qiymətləndirmək üçün istifadə olunur.

***Mərhələlər üzrə təsnifat.*** Debitor borcları portfeli üçün 9 saylı MHBS defolt olmamış aktivlərin 2-ci Mərhələyə aid edilməsi və maliyyə alətlərinin mərhələlər üzrə təsnifləşdirilməməsi kimi praktiki istisnadan istifadə etməyə imkan verir.

Bunu nəzərə alaraq, debitor borcları 3-cü Mərhələyə (defolt şəraitinə uyğun olduqda) və ya 2-ci Mərhələyə (aktiv defolt olunmamış hesab edildikdə) aid edilə bilər və buna görə ehtiyat hər zaman bütöv müddət üçün yaradılır. Defolt bir hesab-faktura səviyyəsində müəyyən edilir və vaxtı keçmiş günlərə əsasən tanınır. Hesab-faktura üzrə ödəniş müddəti 90 gündən çox keçərsə bu, defolt olmuş hesab edilir və sonra 3-cü Mərhələyə təsnifləşdirilir.

Qrupda debitor borclar üzrə standart əməliyyat prosesləri müştərilərin keyfiyyət qiymətləndirməsini nəzərdə tutmadığına görə heç bir əlavə meyar nəzərdən keçirilmir. Yuxarıda qeyd olunanları nəzərə alaraq, müştəri yalnız ödəniş müddətinin keçməsindən əvvəl deyil, bu müddət keçdikdən sonra defolta məruz qala bilər. Debitor borcları üzrə dəyərsizləşmə zərərləri əməliyyat mənfəətinin tərkibində xalis dəyərsizləşmə zərəri kimi göstərilir. Əvvəllər silinmiş məbləğlərin sonradan bərpası da eyni sətir maddəsində göstərilir.

Ümumiyyətlə, ehtimal olunan kredit zərərləri (EOKZ) aşağıdakı kredit riski parametrlərinin hasilinə bərabərdir: effektiv faiz dərəcəsindən istifadə etməklə cari dəyərə diskontlaşdırılan defolt vəziyyətində riskə məruz qalma (DVRMQ), defolt ehtimalı (DE) və defolt zamanı yaranan zərər (DZYZ). EOKZ hər bir fərdi maliyyə aktivinin və ya ümumi seqmentin bütöv müddəti ərzində hər bir növbəti il üçün kredit riski parametrlərini (DVRMQ, DE və DZYZ) proqnozlaşdırmaqla müəyyən edilir.

***EOKZ modellərinə daxil edilmiş proqnoz məlumatları.*** EOKZ-nin qiymətləndirilməsi üçün miqrasiya matrisindən istifadə edildikdə proqnoz məlumatları artıq təyin olunmuş xarici reytinqə daxildir.

***Bazar riski.*** Qrup bazarda ümumi və spesifik dəyişikliklər riskinə məruz qalan (a) valyuta (b) faiz dərəcəsi və (c) pay alətləri üzrə açıq mövqelərdən yaranan bazar risklərinə məruz qalır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir.

Buna baxmayaraq, belə yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklər baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

***Valyuta riski.*** Rəhbərlik xarici valyuta riski ilə bağlı hər bir valyuta üzrə limitlər müəyyən edir. Qrup spekulyativ fəaliyyət və ya hecinq məqsədləri üçün hər hansı törəmə alətlərlə əməliyyat aparmır.

Valyuta riski ilə əlaqədar Qrupun risk siyasətinin əsas elementi hər hansı valyuta üzrə dilinq əməliyyatlarının aparılması üçün planlaşdırılmış vəziyyətin olmamasıdır. Limitli açıq valyuta mövqelərinin baş verməsi yalnız fəaliyyətin normal nəticəsində ortaya çıxır. Qrup aktiv və öhdəliklərini valyutalar üzrə uyğunlaşdırmaq üçün bütün imkanlarından istifadə edir.

Hesabat dövrünün sonuna Qrupun məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

| | 31 dekabr 2025-ci il | | | 31 dekabr 2024-cü il | | |
|---|---|---|---|---|---|---|
| | **Monetar aktivlər** | **Monetar öhdəliklər** | **Xalis mövqe** | **Monetar aktivlər** | **Monetar öhdəliklər** | **Xalis mövqe** |
| Azərbaycan manatı | 1,413,180 | (1,755,988) | (342,808) | 3,165,612 | (2,854,830) | 310,782 |
| ABŞ dolları | 101,032 | (648,105) | (547,073) | 3,017,210 | (91,990) | 2,925,220 |
| **Cəmi** | **1,514,212** | **(2,404,093)** | **(889,881)** | **6,182,822** | **(2,946,820)** | **3,236,002** |

Bütün digər dəyişənlərin sabit qalması şərtilə, hesabat dövrünün sonuna Qrupun müvafiq müəssisəsinin əməliyyat valyutasına tətbiq edilən məzənnələrdəki mümkün dəyişikliklərin mənfəət və ya zərərə, eləcə də kapitala təsiri aşağıdakı cədvəldə əks etdirilir:

| | 31 dekabr 2025-ci il | | 31 dekabr 2024-cü il | |
|---|---|---|---|---|
| | **Mənfəət və ya zərərə təsir** | **Kapitala təsir** | **Mənfəət və ya zərərə təsir** | **Kapitala təsir** |
| ABŞ dollarının 20% möhkəmlənməsi | (109,415) | (87,532) | 585,044 | 468,035 |
| ABŞ dollarının 20% zəifləməsi | 109,415 | 87,532 | (585,044) | (468,035) |

***Faiz dərəcəsi riski.*** Qrup bazar faiz dərəcələrinin üstünlük təşkil edən səviyyələrindəki dəyişikliklərin təsirinə məruz qalmır.

***Likvidlik riski.*** Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsi zamanı Qrupun çətinliklərlə üzləşəcəyi riskdir.

Qrupun likvidlik portfeli borc qiymətli kağızları üzrə investisiya (11 saylı Qeyd), pay qiymətli kağızları üzrə investisiya (12 saylı Qeyd), bankda olan nağd pul vəsaitləri (14 saylı Qeyd) və debitor borcları və digər alınacaq vəsaitlərdən (13 saylı Qeyd) ibarətdir.

Qrup gözlənilən ödəmə müddətlərini və nəticədə diskont edilmiş gözlənilən likvidlik boşluğunu aşağıdakı kimi izləyir:

| 31 dekabr 2025-ci il | Tələb edilənədək və 1 aydan az | 1 aydan 6 aya qədər | 6 aydan 12 aya qədər | 12 aydan 10 ilə qədər | Cəmi |
|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | |
| Bankda və kassada olan nağd pul vəsaitləri | 902,034 | - | - | - | 902,034 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 612,178 | - | - | - | 612,178 |
| Pay qiymətli kağızları üzrə investisiya | 15,428 | - | - | - | 15,428 |
| **Cəmi aktivlər** | **1,529,640** | **-** | **-** | **-** | **1,529,640** |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Buraxılmış borc qiymətli kağızları | - | - | (962,092) | - | (962,092) |
| Müştərilərə ödəniləcək vəsaitlər | (680,050) | - | - | - | (680,050) |
| İcarə öhdəlikləri | (24,302) | (118,459) | (135,659) | (1,445,623) | (1,724,043) |
| **Cəmi öhdəliklər** | (704,352) | (118,459) | (1,097,751) | (1,445,623) | (3,366,185) |
| **Likvidlik boşluğu** | **825,288** | **(118,459)** | **(1,097,751)** | **(1,445,623)** | **(1,836,545)** |
| **MƏCMU LİKVİDLİK BOŞLUĞU** | **825,288** | **706,829** | **(390,922)** | **(1,836,545)** | |

| 31 dekabr 2024-cü il | Tələb edilənədək və 1 aydan az | 1 aydan 6 aya qədər | 6 aydan 12 aya qədər | 12 aydan 10 ilə qədər | Cəmi |
|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | |
| Bankda və kassada olan nağd pul vəsaitləri | 3,603,119 | - | - | - | 3,603,119 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 2,543,172 | - | - | - | 2,543,172 |
| Borc qiymətli kağızları üzrə investisiya | 22,000 | - | - | - | 22,000 |
| Pay qiymətli kağızları üzrə investisiya | 14,455 | - | - | - | 14,455 |
| **Cəmi aktivlər** | **6,182,746** | **-** | **-** | **-** | **6,182,746** |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Buraxılmış borc qiymətli kağızları | - | - | - | (905,754) | (905,754) |
| Müştərilərə ödəniləcək vəsaitlər | (125,115) | - | - | - | (125,115) |
| İcarə öhdəlikləri | (24,302) | (118,459) | (135,659) | (1,558,174) | (1,836,594) |
| **Cəmi öhdəliklər** | (149,417) | (118,459) | (135,659) | (2,463,928) | (2,867,463) |
| **Likvidlik boşluğu** | **6,033,329** | **(118,459)** | **(135,659)** | **(2,463,928)** | **3,315,283** |
| **MƏCMU LİKVİDLİK BOŞLUĞU** | **6,033,329** | **5,914,870** | **5,779,211** | **3,315,283** | |

Qrup yuxarıda qeyd edilən bütün öhdəliklərin eyni zamanda yerinə yetirilməsi üçün kifayət qədər pul ehtiyatları saxlamır, belə ki, təcrübəyə əsasən həmin öhdəliklərin yerinə yetirilməsi üçün tələb olunan pul vəsaitlərini kifayət qədər dəqiqliklə proqnozlaşdırmaq olar. Likvidlik riski hər ay Qrupun pul vəsaitlərinin hərəkəti üzrə proqnozlara nəzarət edən rəhbərliyi tərəfindən idarə olunur.

Aşağıdakı cədvəllər Qrupun maliyyə öhdəlikləri üzrə razılaşdırılmış ödəmə müddəti ilə qalıq müqavilə müddətini əks etdirir. Cədvəllər, Qrupun ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsasən maliyyə öhdəliklərinin diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkəti əsasında tərtib edilmişdir.

Cədvəllərə həm faiz, həm də əsas pul vəsaitlərinin hərəkəti daxildir. Faiz axınları dəyişkən dərəcədirsə, diskontlaşdırılmamış məbləğ hesabat dövrünün sonundakı faiz əyrilərindən əldə edilir. Müqavilənin müddəti, Qrupun ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsaslanır.

Aşağıdakı cədvəl 31 dekabr 2025-ci il tarixinə diskontlaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlilini göstərir:

| 31 dekabr 2025-ci il | Tələb edilənədək və 1 aydan az | 1 aydan 6 aya qədər | 6 aydan 12 aya qədər | 12 aydan çox | Cəmi |
|---|---|---|---|---|---|
| **ÖHDƏLİKLƏR** | | | | | |
| İcarə öhdəliyi | (24,510) | (122,550) | (147,060) | (2,352,960) | (2,647,080) |
| Buraxılmış borc qiymətli kağızları | - | - | (1,000,000) | - | (1,000,000) |
| Müştərilərə ödəniləcək vəsaitlər | (680,050) | - | - | - | (680,050) |
| **Cəmi öhdəliklər** | **(704,560)** | **(122,550)** | **(1,147,060)** | **(2,352,960)** | **(4,327,130)** |

Aşağıdakı cədvəl 31 dekabr 2024-cü il tarixinə diskontlaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlilini göstərir:

| 31 dekabr 2024-cü il | Tələb edilənədək və 1 aydan az | 1 aydan 6 aya qədər | 6 aydan 12 aya qədər | 12 aydan çox | Cəmi |
|---|---|---|---|---|---|
| **ÖHDƏLİKLƏR** | | | | | |
| İcarə öhdəliyi | (24,510) | (122,550) | (147,060) | (2,647,080) | (2,941,200) |
| Buraxılmış borc qiymətli kağızları | - | - | - | (1,000,000) | (1,000,000) |
| Müştərilərə ödəniləcək vəsaitlər | (125,115) | - | - | - | (125,115) |
| **Cəmi öhdəliklər** | **(149,625)** | **(122,550)** | **(147,060)** | **(3,647,080)** | **(4,066,315)** |

## 23. KAPİTALIN İDARƏ EDİLMƏSİ

Kapitalın idarə olunmasında Qrupun məqsədi fasiləsiz fəaliyyət prinsipini təmin etməklə səhmdarlar üçün müvafiq gəlirlilik səviyyəsini təmin etmək, digər tərəflərin maraqlarını qorumaq və kapital xərclərini azaltmağa imkan verən optimal kapital strukturunu saxlamaqdır.

Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 29 sentyabr 2015-ci il tarixində kapitalın minimal məbləği ilə bağlı mövcud tələblərinə əsasən, mövcud investisiya şirkətləri məcmu kapitalın minimal məbləğini 300,000 AZN həcmində saxlamalıdırlar və investisiya şirkətinin cəmi kapital tələbləri onun ticarət kitabının ölçüsündən asılıdır. Ticarət kitabında qeyd olunan əməliyyatların orta gündəlik həcmi son 250 gün üçün 15,000,000 AZN-dən artıqdırsa və ya əməliyyatların həcmi ən azı son 4 gün ərzində 20,000,000 AZN məbləğindən artıqdırsa investisiya şirkətinin ticarət kitabı önəmli hesab olunur. Ticarət kitabı önəmli hesab olunmayan investisiya şirkətinin cəmi kapital tələbləri onun kredit riskləri, bazar riskləri, əməliyyat riskləri və konsentrasiya riskləri əsasında hesablanmış kapital tələblərinin cəminə bərabər olur. Qrupun qaydaya əsasən hesablanmış kapitalının tərkibi aşağıdakı kimidir:

| | 31 dekabr 2025-ci il (audit olunmamış) | 31 dekabr 2024-cü il (audit olunmamış) |
|---|---|---|
| **1-ci səviyyəli kapital** | | |
| Səhmdar kapitalı | 4,550,000 | 4,550,000 |
| Bölüşdürülməmiş mənfəət | 702,517 | 1,660,977 |
| Kapital ehtiyatları | 612,174 | 612,174 |
| **Cəmi 1-ci səviyyəli kapital** | **5,864,691** | **6,823,151** |
| **1-ci səviyyəli kapitaldan çıxılmalar** | | |
| Cari il üzrə zərər | 4,174,554 | 884,844 |
| Qeyri-maddi aktivlər | 70,902 | 158,340 |
| **Çıxılmalardan sonra cəmi 1-ci səviyyəli kapital** | **1,619,235** | **5,779,967** |
| **2-ci səviyyəli kapital** | | |
| Cari il üzrə mənfəət | - | - |
| **Cəmi 2-ci səviyyəli kapital** | - | - |
| **Çıxılmadan öncə cəmi kapital** | **5,864,691** | **6,823,151** |
| **Çıxılmalardan sonra cəmi tənzimləyici kapital** | **1,619,235** | **5,779,967** |
| Kredit riski | 233,505 | 522,580 |
| Əməliyyat riski | 111,437 | 127,280 |
| Bazar riski | 8,077 | - |
| **Cəmi kapital tələbləri** | **353,019** | **649,860** |
| **Kapital adekvatlığı** | **6.19** | **8.89** |

## 24. TƏƏHHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

### Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM)

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin Qərarı ilə təsdiq edilmiş “Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar” və “Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər”ə əsasən “CFİ Financial İnvestisiya Şirkəti” QSC aşağıdakı uyğunluq tədbirlərini həyata keçirmişdir:

- Müştəri uyğunluğu yoxlamalarının həyata keçirilməsi (“Müştərini tanı” prosedurları);
- Daxili siyasət və metodologiya;
- 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində tələblər əsasında qruplaşdırılmış minimum mövzular üzrə müvafiq heyət üçün cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) ilə əlaqədar təlimlər keçirilmişdir;
- 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Azərbaycan Respublikası Mərkəzi Bankına İnstitusional Risk Qiymətləndirilməsi təqdim edilmişdir.

ƏL/TMM çərçivəsinin möhkəmləndirilməsi üzrə mərhələlərə müştəri monitorinqi vasitələrinin gücləndirilməsi və daxili siyasət və prosedurların yenilənməsi daxildir. Rəhbərliyin fikrinə əsasən Qrup qanunverici orqan tərəfindən müəyyən edilmiş ƏL/TMM tələblərinə riayət etmişdir.

**Məhkəmə prosedurları**

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Qrupa qarşı iddialar irəli sürülə bilər. 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Qrupa qarşı 1,500,000 AZN məbləğində iddia irəli sürülmüşdür (31 dekabr 2024: 390,000 AZN). Öz təxminləri, eləcə də həm daxili, həm də xarici peşəkar məsləhətlər əsasında Qrupun rəhbərliyi hesab edir ki, bu konsolidə edilmiş maliyyə hesabatlarında nəzərdə tutulmuş ehtiyatlardan artıq olan iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir.

**Vergi qanunvericiliyi**

Qrupa tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında baş vermiş son hadisələr əsasında vergi orqanlarının qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilməsi və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilməsi qənaətinə gəlmək olar.

Bunun nəticəsində, Qrupa qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən yoxlama ilindən əvvəlki üç təqvim ilinə aid maliyyə dövrləri yoxlanıla bilər.

Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Qrupun mövqelərində əhəmiyyətli dəyişikliklər baş verməyəcək.

**Kapital məsrəfləri ilə bağlı öhdəliklər**

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Qrupun kapital məsrəfləri ilə bağlı əhəmiyyətli müqavilə öhdəlikləri mövcud olmamışdır.

## 25. ÖLÇMƏ KATEQORİYALARI ƏSASINDA MALİYYƏ ALƏTLƏRİNİN TƏQDİM OLUNMASI

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə ölçmə kateqoriyaları əsasında maliyyə aktivlərinin üzləşdirilməsi aşağıdakı cədvəldə təqdim olunmuşdur:

| | 2025-ci il | | | 2024-cü il | | |
|---|---|---|---|---|---|---|
| | **MZVƏD (məcburi)** | **Amortizasiya dəyərində qiymətləndirilən** | **Cəmi** | **MZVƏD (məcburi)** | **Amortizasiya dəyərində qiymətləndirilən** | **Cəmi** |
| **AKTİVLƏR** | | | | | | |
| Bankda və kassada olan nağd pul vəsaitləri | - | 902,034 | 902,034 | - | 3,603,119 | 3,603,119 |
| - Korporativ istiqrazlar | - | - | - | 22,000 | - | 22,000 |
| Pay qiymətli kağızları üzrə investisiyalar | | | | | | |
| - Korporativ səhmlər | 15,428 | - | 15,428 | 14,455 | - | 14,455 |
| - Debitor borcları və digər alınacaq vəsaitlər | 470,257 | 141,921 | 612,178 | - | 2,543,172 | 2,543,172 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **485,685** | **1,043,955** | **1,529,640** | **36,455** | **6,146,291** | **6,182,746** |
| **ÖHDƏLİKLƏR** | | | | | | |
| Buraxılmış borc qiymətli kağızları | - | (962,092) | (962,092) | - | (905,754) | (905,754) |
| Müştərilərə ödəniləcək vəsaitlər | (648,095) | (31,955) | (680,050) | - | (125,115) | (125,115) |
| İcarə öhdəlikləri | - | (1,724,043) | (1,724,043) | - | (1,836,594) | (1,836,594) |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **(648,095)** | **(2,718,090)** | **(3,366,185)** | **-** | **(2,867,463)** | **(2,867,463)** |

## 26. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

13 mart 2026-cı il tarixində Qrup hər birinin dəyəri 1,000 AZN olan 1,450 ədəd əlavə səhm buraxmaqla, səhmdar kapitalında 1,450,000 AZN cəmi artıma səbəb olmuşdur.